QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 203 (5675) **26 oktyabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# İlham Əliyev: "Ölkəmizdə sabitlik, təhlükəsizlik hökm sürür"

*"Sabitliyin mənbəyi Azərbaycan xalqının iradəsidir"*




**"Bizim tarixi keçmişimiz, mədəniyyətimiz onu göstərir ki, müxtəlif dinlərin nümayəndələri Azərbaycanda həmişə çox rahat yaşayıblar, bir ailə kimi yaşayıblar"**

Səh 2

"Azərbaycan ilə Rusiyanın bu sahədə əlaqələri nümunəvi xarakter daşıyır"



4

"Azərbaycan ilə ISESCO arasında uzun illər ərzində uğurlu, səmərəli əməkdaşlıq qurulub"



5

Humanitar Forum çərçivəsində Heydər Əliyev Mərkəzində innovativ məhsul və xidmətlər, startapçıların uğurlu tətbiqləri nümayiş olunur



6

Dayanıqlı İnkişafa Dair Bakı Forumu



7

Mixail Qusman: Bakı Beynəlxalq Humanitar Forumu getdikcə daha nüfuzlu və dünyamiqyaslı məkana çevrilir



6

UNESCO-nun xoşməramlı səfiri: Bakı Beynəlxalq Humanitar Forumunda dünyaya önəmli sülh və dostluq mesajları verilir



6

7

YAP-ın nümayəndələri ICAPP 10-cu Baş Assambleyasında iştirak edirlər



11

"Rəsmi Paris vasitəçilik prinsiplərinə zidd addımlar atır"



11

Leysan Soçidə həyatı iflic etdi



səs
www.sesqazeti.az
facebook Ses Media Holding
26 oktyabr 2018-ci il

# İlham Əliyev: "Ölkəmizdə sabitlik, təhlükəsizlik hökm sürür"

*"Sabitliyin mənbəyi Azərbaycan xalqının iradəsidir"*

***Oktyabrın 25-də Heydər Əliyev Mərkəzində VI Bakı Beynəlxalq Humanitar Forumu işə başlayıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Forumun rəsmi açılış mərasimində iştirak ediblər.***




"Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı" mövzusunda keçirilən VI Bakı Beynəlxalq Humanitar Forumunun açılışında dövlətimizin başçısı nitq söyləyib. Prezident İlham Əliyev öz nitqində qeyd edib ki, builki forumda 90-dan artıq ölkədən 400-dən çox xarici qonaq iştirak edir. Bu, özlüyündə bir göstəricidir, onu göstərir ki, dünyada Foruma çox böyük maraq var:




"Bakı Beynəlxalq Humanitar Forumu qısa müddət ərzində dünyada çox önəmli beynəlxalq tədbirə çevrilmişdir. Əminəm ki, Forumda müzakirə ediləcək məsələlər gələcək humanitar əməkdaşlıq üçün çox önəmli olacaq, xaricdən gələn qonaqlar Forumun işinə çox böyük töhfə verəcəklər.

Humanitar məsələlərin müzakirəsi çox önəmlidir. Çünki biz müasir dünyada bu sahədə həm nailiyyətləri, həm də problemləri görürük. Azərbaycan bu sahəyə çox böyük önəm verən ölkələrdən biridir. Ölkəmizdə humanitar əməkdaşlığa dair bir çox mötəbər beynəlxalq tədbirlər keçirilmişdir. Onların arasında BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumunu xüsusilə qeyd etmək istərdim. Bu, çox önəmli beynəlxalq tədbirdir. Eyni zamanda, Bakıda dünya dinləri liderlərinin Zirvə görüşü keçirilmişdir. Dörd dəfə Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir. Altıncı dəfə Bakı Beynəlxalq Humanitar Forumunun keçirilməsi onu göstərir ki, doğrudan da Azərbaycan beynəlxalq humanitar əməkdaşlığın dərinləşməsi üçün çox önəmli ölkəyə çevrilmişdir.

Bu il biz "Bakı Prosesi"nin 10 illiyini qeyd edirik. "Bakı Prosesi" beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir, o cümlədən BMT bu prosesə çox yüksək qiymət verir. Bizim təşəbbüsümüzlə 10 il bundan əvvəl Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərinin Bakıda keçirilən toplantısına biz İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərini də dəvət etdik. Beləliklə, ilk dəfə olaraq 100-dən çox ölkənin nümayəndələri - müsəlman aləmini və Avropanı təmsil edən vəzifəli şəxslər bir araya gələrək humanitar məsələləri, mədəniyyət əlaqələrini, dinlərarası münasibətləri müzakirə etmişlər. Ondan bir il sonra bu format təkrarlandı, Bakıda İslam Əməkdaşlıq





Təşkilatının xətti ilə keçirilmiş tədbirə biz Avropa nümayəndələrini dəvət etdik.

Azərbaycan həm İslam Əməkdaşlıq Təşkilatına, həm Avropa Şurasına üzv dövlətdir. Əlbəttə ki, biz bu imkanlardan istifadə edib çalışırdıq və çalışırıq ki, sivilizasiyalararası dialoqa öz töhfəmizi verək."

Dövlətimizin başçısı qeyd edib ki, əsrlər boyu müxtəlif dinlərin, xalqların nümayəndələri Azərbaycanda bir ailə kimi sülh, əmin-amanlıq, mehribanlıq şəraitində yaşamışlar və bu siyasət bu gün də davam etdirilir. Azərbaycanda bu istiqamətdə dövlət siyasəti çox səmərəlidir və gözəl nəticələrə gətirib çıxarır: "Bizim tarixi keçmişimiz, mədəniyyətimiz onu göstərir ki, müxtəlif dinlərin nümayəndələri Azərbaycanda həmişə çox rahat yaşayıblar, bir ailə kimi yaşayıblar. Bizim tarixi, dini abidələrimiz həm qədim tariximizi göstərir, eyni zamanda, göstərir ki, Azərbaycan müxtəlif dinlərin nümayəndələri üçün doğma diyar, doğma məkan



olmuşdur. Biz fəxr edirik ki, müsəlman aləminin ən qədim məscidlərindən biri olan, 743-cü ildə tikilmiş və bizim Şamaxı şəhərində yerləşən məscid milli sərvətimizdir. Eyni zamanda, digər qədim şəhərimizin - Şəki şəhərinin yaxınlığında Qafqazın ən qədim kilsələrindən biri - Qafqaz Albaniyası kilsəsi yerləşir. Hər iki məbəd əsaslı şəkildə təmir və bərpa edilib, dövlət tərəfindən qorunur. Bakıda qədim atəşpərəstlik məbədi Atəşgah yerləşir. Bu da onu göstərir ki, Azərbaycanda Zərdüştlük dininin ənənələri vardır.

Ənənəvi dinlərin məbədlərinin - katolik, pravoslav kilsələrinin, sinaqoqların bərpası və tikintisi Azərbaycanda reallıqdır. Bu reallıq ölkəmizdə çox gözəl ictimai iqlim yaradır. Azərbaycanda multikulturalizm dövlət siyasətidir. Biz öz milli, dini ənənələrimizə çox bağlıyıq, sadiqik və milli dəyərlər gələcək inkişafımız üçün xüsusi rol oynayır. Deyə bilərəm ki, müasir Azərbaycan dövləti çox dərin milli dəyərlər, milli-mənəvi dəyərlər üzərində qurulubdur. Eyni zamanda, biz dünyaya açığıq. Qeyd etdiyim kimi, Azərbaycan dünyada multikulturalizmin ünvanlarından birinə çevrilibdir və bu şərəfli status artıq dünya birliyi tərəfindən tanınır. Təsadüfi deyil ki, biz mənim Sərəncamımla 2016-cı ili Azərbaycanda "Multikulturalizm İli" elan etdik. Hesab edirəm ki, dünyada ilk dəfə olaraq belə bir təşəbbüs irəli sürülmüşdür. Bu, bizim niyyətimizi göstərmişdir, 2016-cı ilə multikulturalizm adını verməklə, ilk növbədə, biz dünyada Azərbaycanı olduğu kimi təqdim etmək istədik. Göstərmək istədik ki, multikulturalizm Azərbaycanda həm dövlət siyasətidir, həm həyat tərzidir, eyni zamanda, biz dünya birliyinin diqqətini bu məsələyə cəlb etməyə çalışdıq. Çünki siz də yaxşı bilirsiniz ki, bu gün həm siyasətçilər, ictimai xadimlər, həm də media tərəfindən multikulturalizmlə bağlı çox ziddiyyətli fikirlər səsləndirilir. Ona görə hesab edirəm ki, bu məsələ ilə bağlı vahid yanaşma olmalıdır və burada heç bir ziddiyyətli fikrə yer ola bilməz. Hesab edirəm ki, Azərbaycanın bu sahədəki təcrübəsi həm təqdirəlayiqdir, həm də gözəl nümunə ola bilər. Biz multikulturalizmin bəhrəsini gündəlik həyatda görürük. Bu gün Azərbaycanda yaşanan sabitlik, vətəndaş həmrəyliyi, milli həmrəylik, o cümlədən bu dəyərlərə əsaslanır. Biz çalışdıq ki, 2016-cı ildə diqqəti bu önəmli məsələyə cəlb edək. Xüsusilə nəzərə alsaq ki, bu gün, bir daha qeyd etmək istəyirəm, multikulturalizmlə bağlı müxtəlif fikirlər səsləndirilir. Hesab edirəm ki, Forumda bu məsələ çox geniş müzakirə olunacaqdır.

2017-ci ili isə biz "İslam Həmrəyliyi İli" elan etdik. Yenə də ona görə ki, Azərbaycanda İslam həmrəyliyi tam bərqərar olub. Onu da bildirməliyəm ki, Azərbaycan müsəlmanları vətən namazı qılırlar. Hesab edirəm ki, Azərbaycan bu sahədə müsəlman aləmində çox önəmli rol oynayır. Eyni zamanda, biz müsəlman aləminin diqqətini də bu sahəyə cəlb etməyə çalışdıq. Çünki əfsuslar olsun ki, biz müsəlman aləmində həmrəyliklə bağlı istədiyimizə nail ola bilməmişik. Qarşıdurmalar, müharibələr, anlaşılmazlıq, toqquşmalar və digər təhlükəli meyillər ölkələr üçün böyük problemə, faciəyə çevrilir, milyonlarla insan həlak olur, evsizeşiksiz qalır, qaçqın, köçkün vəziyyətinə düşür.

*Ardı Səh. 3*

# İlham Əliyev: "Ölkəmizdə sabitlik, təhlükəsizlik hökm sürür"

## *"Sabitliyin mənbəyi Azərbaycan xalqının iradəsidir"*





**Əvvəli Səh. 2**

Əlbəttə, biz çalışmalıyıq ki, bu sahədə də öz təkliflərimizi verək, öz nümunəmizi göstərək ki, əgər İslam həmrəyliyi və multikulturalizm anlayışları vəhdət təşkil edərsə və dövlət siyasəti düzgün aparılarsa, bu, xalq tərəfindən də qəbul edilərsə, onda ölkələrdə problem olmayacaq. Müasir Azərbaycan bunun əyani, bariz sübutudur. Təsadüfi deyil ki, biz humanitar əməkdaşlıqla, multikulturalizmlə bağlı bir çox tədbirlərə ev sahibliyi edirik."

Prezident İlham Əliyev qeyd edib ki, Dağlıq Qarabağ bizim tarixi, əzəli torpağımızdır, Azərbaycanın ayrılmaz hissəsidir. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb, yaradıb, qurub. Bizim tarixi abidələrimiz, şəhərlərin, kəndlərin toponimləri bu torpaqların Azərbaycan xalqına məxsus olduğunu sübut edir:

"Əfsuslar olsun ki, təcavüzkar dövlət işğal edilmiş torpaqlarda bizim tarixi, dini abidələrimizi də dağıdıb, məhv edib. İşğal edilmiş torpaqlarımıza iki dəfə ezam olunmuş ATƏT-in faktaraşdırıcı və müşahidə missiyası öz məruzələrində bu barədə məlumat verib. Bizim məscidlərimiz, qəbirlərimiz dağıdılıb, muzeylərimiz talan edilib və işğal olunmuş torpaqlarda mədəni soyqırımı törədilib. 1992-ci ildə isə ermənilər Xocalı soyqırımını törədiblər. Bu dəhşətli hərbi cinayət nəticəsində 600-dən çox günahsız dinc insan, onların arasında 60-dan çox uşaq vəhşicəsinə qətlə yetirilib. Xocalı faciəsi dünyanın 10-dan çox ölkəsi tərəfindən rəsmi olaraq soyqırımı kimi tanınıb. Bu soyqırımı zamanı mindən çox insan itkin düşüb və onların taleyi haqqında heç bir məlumat yoxdur.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır. Azərbaycan heç vaxt işğalla barışmayacaq, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Bunu tarixi ədalət və beynəlxalq hüquq tələb edir.

Bu humanitar fəlakətə baxmayaraq, hesab edirəm ki, müstəqillik dövründə Azərbaycan çox uğurlu inkişafa nail ola bilibdir. Ölkəmizdə sabitlik, təhlükəsizlik hökm sürür. Sabitliyin mənbəyi Azərbaycan xalqının iradəsidir. Bu gün Azərbaycanda yaşanan vətəndaş həmrəyliyi ölkəmizin uğurlu inki-






şafı üçün əsas şərtdir. Ölkəmiz beynəlxalq müstəvidə böyük hörmət qazanıb və bizimlə əməkdaşlıq edən ölkələrin sayı gündən-günə artır. Düz 7 il bundan əvvəl - 2011-ci il oktyabrın sonlarında Azərbaycan ilk dəfə olaraq BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. Bu, bizim böyük siyasi və diplomatik uğurumuzdur, qələbəmizdir. Ən önəmlisi odur ki, 155 ölkə Azərbaycanın namizədliyini dəstəkləmişdir. Yəni, bu, onu göstərir ki, dünya birliyinin mütləq əksəriyyəti Azərbaycanı dəstəkləyir, Azərbaycanda görülən işlərə yüksək qiymət verir, Azərbaycanı etibarlı tərəfdaş və dost ölkə kimi tanıyır.

Hesab edirəm ki, xarici siyasətlə bağlı apardığımız işlər gözəl nəticələrə gətirib çıxarır. İlk növbədə, biz qonşu ölkələrlə çox səmimi, mehriban qonşuluq, dostluq münasibətləri qura bilmişik. Hər bir ölkə üçün onun qonşuları ilə münasibətlər xüsusi əhəmiyyət kəsb edir. Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, qonşu dövlətlərlə, - təbii ki, Ermənistan istisna olmaqla, - bizim münasibətlərimiz çox yüksək səviyyədədir, həm siyasi, iqtisadi, bütün başqa sahələrdə, o cümlədən humanitar əməkdaşlıq sahəsində."

Dövlət başçısı diqqətə çatdırıb ki, Azərbaycanda bütün fundamental azadlıqlar təmin edilibdir, o cümlədən söz azadlığı, sərbəst toplaşma azadlığı, mətbuat azadlığı, vicdan azadlığı. Azərbaycan əhalisinin 80 faizdən çoxu internet istifadəçisidir və ölkəmizdə azad internet fəaliyyət göstərir:

"Beləliklə, siyasi islahatların dərinləşməsi ölkəmizdə iqtisadi islahatlara daha da böyük təkan verir. Çünki sabitliyin mövcud olması ölkəmizə böyük həcmdə xarici sərmayənin gətirilməsinə də gözəl şərait yaradıb. Adambaşına düşən sərmayələrin həcminə görə Azərbaycan dünya miqyasında aparıcı yerlərdədir. Qeyd etməliyəm ki, ölkə iqtisadiyyatına 250 milyard dollardan çox sərmayə qoyulubdur ki, bu sərmayənin yarısı xaricdən gələn vəsaitdir.

Azərbaycan son 15 il ərzində iqtisadi sahədə ən sürətli inkişaf templərini nümayiş etdirib. Mən hesab edirəm ki, bu, rekord göstəricidir. Çünki son 15 il ərzində ümumi daxili məhsul 3,2 dəfə artıb və beləliklə, Azərbaycan çox böyük inkişaf yolunu keçib. Biz iqtisadi sahədə tam müstəqillik əldə etmişik. İqtisadi müstəqillik əlbəttə ki, siyasi müstəqilliyimizi möhkəmləndirir. Azərbaycan iqtisadiyyatı özünü təmin edən iqtisadiyyatdır, xarici kreditlərdən asılı iqtisadiyyat deyil. Biz nəinki kreditlərin alınmasını demək olar ki, dayandırmışıq, özümüz bəzi ölkələrə kreditlərin verilməsinə başlamışıq.

Forumda müzakirə olunacaq məsələlərdən biri də təhsillə bağlıdır. Deyə bilərəm ki, təhsilin inkişafı və təhsildə müasir metodların tətbiq edilməsi prioritet məsələlərdən biridir. Təhsil sisteminin maddi-texniki bazası möhkəmlənir. Son 15 il ərzində 3000-dən çox məktəb tikilib və təmir edilib. Deməliyəm ki, Azərbaycanda cəmi 4500-dən bir qədər çox məktəb var, onların əksər hissəsi ən yüksək standartlar səviyyəsində qurulub. Eyni zamanda, müəllim peşəsinə maraq da çox böyük dərəcədə artır. Aparılan islahatlar, o cümlədən maaşların əhəmiyyətli dərəcədə artırılması, məktəblərin təmiri və digər stimullaşdırıcı addımlar nəticəsində müəllim olmaq istəyənlərin sayı dəfələrlə artıb və bu il biz bunu əyani şəkildə görmüşük. Test imtahanlarında yüksək ballar toplayan abituriyentlər arasında müəllim olmaq istəyənlərin sayı bir neçə dəfə artıbdır. Yəni, bu, onu göstərir ki, humanitar sahənin əsas hissələrindən biri olan təhsil sahəsinə çox böyük diqqət göstərilir və gözəl nəticələr vardır.

Biz ardıcıl siyasət aparmaqla həm iqtisadi islahatları dərinləşdiririk, həm də sosial sahədə lazım olan addımları atırıq. Ölkəmizdə yüksək texnologiyalara çox böyük diqqət göstərilir, bu yaxınlarda üçüncü peykimiz orbitə buraxıldı. Azərbaycan artıq neçə ildir ki, dünyanın məhdud sayda olan kosmik klubunun üzvüdür və 3 peykimiz var. Əlbəttə ki, bu, həm texnoloji inkişafdır, həm təhsildir, həm də biznes imkanlarını yaradır. Biz bu gün peyk xidmətlərini ixrac etməklə ölkəmizdə ixracı da şaxələndiririk."

X X X

Daha sonra Rusiya Federasiyası Baş nazirinin müavini xanım Olqa Qolodets, BMT baş katibinin müavini Rəşid Xalikov, ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri, UNESCO-nun baş direktorunun müavini Çu Sin, Parlamentlərarası İttifaqın prezidenti xanım Qabriela Baron çıxış edərək, forumun əhəmiyyəti barədə danışıblar. Qeyd olunub ki, Beynəlxalq humanitar forumun müzakirələri yaradıcı yanaşma və insan inkişafına əsaslanan yeni dünyanın formalaşdırılması mövzusuna həsr olunub. Forumdakı müzakirələr zamanı çoxtərəfli mütəfiqlik və tərəfdaşlığa zərurət artıq etiraf edilir. Bir çox hallarda qeyd olunur ki, 2030-cu il üçün gündəliyin ən mürəkkəb məsələlərindən biri 17-ci Dayanıqlı İnkişaf Məqsədinə nail olmaqdır. Diqqətə çatdırılıb ki, Forumun uğurlu olması onu göstərir ki, Azərbaycan problemlərə, ərazi bütövlüyü ilə bağlı çətinliklərə baxmayaraq irəliyə doğru gedir, inkişaf edir və bütün dünyaya örnək göstərir. Həmçinin xüsusi ilə vurğulanıb ki, Azərbaycan BMT-nin müxtəlif qurumları vasitəsilə qlobal səviyyədə humanitar yardımı milyonlarla dollar səviyyəsində artırıb.

X X X

Bununla da VI Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi açılış mərasimi başa çatdı. Açılış çıxışlarından sonra Forum işini plenar və işçi sessiyalarla davam etdirib.



## "Azərbaycan ilə Rusiyanın bu sahədə əlaqələri nümunəvi xarakter daşıyır"

*Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Baş nazirinin müavinini qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Rusiya Federasiyası Baş nazirinin müavini xanım Olqa Qolodetsi qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Rusiya Prezidenti Vladimir Putinin VI Bakı Beynəlxalq Humanitar Forumuna göndərdiyi təbrik məktubuna görə minnətdarlığını bildirdi və orada qeyd olunan fikirlərin önəmini vurğuladı. Prezident İlham Əliyev Rusiyanın bu tədbirdə belə geniş tərkibdə təmsil olunmasından məmnunluğunu ifadə etdi.

Dövlətimizin başçısı bildirdi ki, Rusiya Prezidenti ilə son görüşləri zamanı ikitərəfli münasibətlərin müxtəlif sahələri, o cümlədən bu Forumla bağlı məsələlər də müzakirə olundu və əməkdaşlığımızın bütün istiqamətlərdə, eləcə də humanitar sahədə inkişafından məmnunluq ifadə edildi. Dövlətimizin başçısı qeyd etdi ki, qonşu və dost ölkələr olan Azərbaycan ilə Rusiyanın bu sahədə əlaqələri nümunəvi xarakter daşıyır və humanitar əməkdaşlıq məsələsi demək olar ki, dövlət başçıları arasında keçirilən bütün görüşlərin gündəliyində durur. Prezident İlham Əliyev bildirdi ki, siyasi sahədə əlaqələr də uğurla inkişaf edir. Bu baxımdan dövlətimizin başçısı bir aydan az bir müddətdə özünün Rusiyaya rəsmi səfəri və Vladimir Putinin də Azərbaycana səfərinin həyata keçirilməsinin əlaqələrimizin yüksək səviyyəsinin göstəricisi olduğunu qeyd etdi.

Forumun bir daha ölkələrimiz arasında yaxın əlaqələrin mövcud olduğunu nümayiş etdirdiyini deyən Prezident İlham Əliyev bu tədbirdə demək olar ki, dünya birliyinin yarısının təmsil olunmasını Foruma olan böyük diqqətin təzahürü kimi qiymətləndirdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən Rusiya Federasiyası Baş nazirinin müavini xanım Olqa Qolodets ölkəmizin, şəxsən Prezident İlham Əliyevin Humanitar Foruma göstərdiyi bu cür diqqətə görə minnətdarlığını bildirdi. Bu tədbirin iki ölkənin dövlət başçıları tərəfindən irəli sürülmüş təşəbbüs olduğunu vurğulayan qonaq forumdan-foruma iştirakçıların sayının artdığını və gündəliyin daha da genişləndiyini vurğuladı. O qeyd etdi ki, bu Forumda müzakirə olunan məsələlərin gündəlik həyatda reallaşması böyük önəm daşıyır.

Daha sonra xanım Olqa Qolodets vurğuladı ki, həm Azərbaycan, həm də Rusiya davamlı olaraq tolerantlıq siyasətinin həyata keçirilməsi və milli mədəniyyətlərin vəhdət şəklində inkişaf etdirilməsi baxımından dünyaya bir nümunədirlər. O, ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirək Forumun humanitar sahədə əməkdaşlıq işinə böyük töhfə verdiyini bildirdi.

## Prezident İlham Əliyev Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektorunu qəbul edib

Oktyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektoru Anatoli Torkunovu qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə VI Bakı Beynəlxalq Humanitar Forumunun əhəmiyyəti vurğulandı, bu tədbirin beynəlxalq əməkdaşlığa mühüm töhfə verdiyi qeyd edildi.

Prezident İlham Əliyev Anatoli Torkunovun Forumda iştirakından məmnunluğunu bildirdi. Rektor Anatoli Torkunov Forumun dünyada humanitar əlaqələrin inkişafına töhfəsini vurğulayaraq ölkəmizə xoş duyğularla gəldiyini və bu mötəbər tədbirdə iştirak etdiyini dedi.



## Prezident İlham Əliyev Sloveniya Milli Şurasının sədrini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Sloveniya Milli Şurasının sədri Aloyz Kovşkanı qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Sloveniya Milli Şurasının sədri Aloyz Kovşkaya VI Bakı Beynəlxalq Humanitar Forumunda iştirakına görə minnətdarlığını bildirdi və onun səfərinin ikitərəfli münasibətlərimizlə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi.

Sloveniya Milli Şurasının sədri Aloyz Kovşka ölkələrimiz arasında hələ keçmişdən çox



yaxşı əlaqələrin mövcud olduğunu dedi və bildirdi ki, bu əlaqələrin daha da inkişaf etdirilməsi üçün imkanlar var. O, ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi üçün qarşılıqlı maraq doğuran sahələrin müəyyənləşdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldığını və gələcəkdə bu istiqamətdə işlərin görüləcəyinə ümidvar olduğunu bildirdi.

Dövlətimizin başçısı, öz növbəsində, Azərbaycan ilə Sloveniya arasında əlaqələrin uğurla inkişaf etdiyini dedi, əlaqələrimizin inkişafında prezidentlər səviyyəsində qarşılıqlı rəsmi səfərlərin önəmini qeyd etdi və özünün Sloveniyaya rəsmi səfərini məmnunluqla xatırladı. İkitərəfli əlaqələrimizin daha da genişləndirilməsinin zəruriliyini vurğulayan Prezident İlham Əliyev ölkələrimiz arasında tərəfdaşlıq sahələrinin müəyyənləşdirilməsinin əhəmiyyətinə toxundu və bu baxımdan qarşılıqlı ticarətin səviyyəsinin artırılmasının vacibliyini dedi. Dövlətimizin başçısı qeyd etdi ki, hər iki ölkədən olan şirkətlər Azərbaycan ilə Sloveniya arasındakı mövcud yaxşı siyasi mühitdən faydalanaraq öz fəaliyyətlərini daha da genişləndirə bilərlər. Sloveniyada səfərdə olarkən orada Mehdi Hüseynzadənin memorialını ziyarət etdiyini məmnunluqla xatırlayan Prezident İlham Əliyev ölkələrimiz arasında humanitar əməkdaşlığın və eləcə də çox mühüm əhəmiyyət daşıyan turizmin inkişaf etdirilməsi üçün də yaxşı perspektivlərin olduğunu bildirdi.

## Prezident İlham Əliyev Uruqvay Nümayəndələr Palatasının sədrini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Uruqvay Nümayəndələr Palatasının sədri Xorxe Qandinini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Uruqvay Nümayəndələr Palatasının sədri Xorxe Qandininin VI Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etməsindən məmnunluğunu ifadə etdi və bildirdi ki, onun bu tədbirdə iştirakı Uruqvayın həm Foruma verdiyi dəstəyin əlamətidir, həm də ikitərəfli münasibətlərimizin inkişafına olan marağının göstəricisidir. Prezident İlham Əliyev Uruqvayın Forumda yüksək səviyyədə təmsil olunmasını əməkdaşlığımızın gözəl təzahürü kimi qiymətləndirdi. Dövlətimizin başçısı bildirdi ki, ölkələrimizi bir-birinə dostluq əlaqələri bağlayır, yüksək səviyyəli qarşılıqlı səfərlər bu əlaqələri daha da gücləndirir. Azərbaycan xarici işlər nazirinin Uruqvaya səfər etdiyini qeyd edən Prezident İlham Əliyev bu səfərlərin əməkdaşlığın gələcəyi ilə bağlı fikir mübadiləsi aparmaq üçün böyük əhəmiyyət daşıdığını dedi. Qarşılıqlı səfərlərin əməkdaşlığımızın gələcəyinin müəyyənləşdirilməsi baxımından böyük önəm daşıdığını vurğulayan dövlətimizin başçısı Uruqvay Nümayəndələr Palatasının sədri Xorxe Qandininin ölkəmizə bu səfəri zamanı ikitərəfli əlaqələrin inkişafı ilə bağlı geniş fikir mübadiləsinin aparılacağına əminliyini bildirdi.



Uruqvay Nümayəndələr Palatasının sədri Xorxe Qandini VI Bakı Beynəlxalq Humanitar Forumuna dəvətə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. O, Forumun uzun illərdir ki, mütəmadi olaraq yüksək səviyyədə keçirildiyini dedi və bu münasibətlə təbriklərini çatdırdı. Öz növbəsində, qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunan Xorxe Qandini bu cür səfərlərin əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparmaq üçün geniş imkanlar yaratdığını vurğuladı.

## "Azərbaycan ilə UNESCO əlaqələri güclü tərəfdaşlığa və zəngin tarixə malikdir"

*Prezident İlham Əliyev UNESCO-nun baş direktorunun müavinini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də UNESCO-nun baş direktorunun müavini Çu Sini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı UNESCO-nun baş direktorunun müavini Çu Sinin VI Bakı Beynəlxalq Humanitar Forumunda iştirakına görə minnətdarlığını bildirdi və bunu Azərbaycan-UNESCO əməkdaşlığının yaxşı nümunəsi kimi dəyərləndirdi. Azərbaycan ilə UNESCO əlaqələrinin güclü tərəfdaşlığa və zəngin tarixə malik olduğunu qeyd edən dövlətimizin başçısı uğurlu əməkdaşlığımızın davam etməsindən məmnunluğunu bildirdi. Azərbaycanın UNESCO-nun etibarlı tərəfdaşı olduğunu deyən Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan tərəfi ötən illər ərzində ölkəmizin tarixi, mədəni abidələrinin, UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil olan tarixi yerlərin ümumbəşəri dəyərlərə çevrilməsi işində UNESCO-nun fəaliyyətini yüksək qiymətləndirir. Dövlətimizin başçısı bildirdi ki, bütün bunlar ölkəmizin bu təşkilatla uğurlu əməkdaşlığının bariz nümunəsidir. Prezident İlham Əliyev, eyni zamanda, Azərbaycanın tarixi və mədəniyyəti barədə məlumatların dünyaya yayılması ilə bağlı UNESCO tərəfindən görülən işlərə görə minnətdarlığını bildirdi.

Çu Sin, ilk növbədə, UNESCO-nun baş direktoru xanım Odri Azulenin salamlarını dövlətimizin başçısına çatdırdı. O, VI Bakı Beynəlxalq Humanitar Forumunun böyük əhəmiyyət daşıdığını qeyd etdi və bildirdi ki, Azərbaycan mədəniyyətlərarası dialoqla bağlı bu cür tədbirlərin keçirilməsi üçün nümunəvi bir məkandır. Azərbaycanın Şimal-Cənub, Şərq-Qərb istiqamətlərində mühüm nöqtədə yerləşdiyini vurğulayan Çu Sin bu tədbirin Bakıda keçirilməsini önəmli bir hadisə kimi dəyərləndirdi. Qonaq bildirdi ki, UNESCO Azərbaycanla əməkdaşlığı yüksək qiymətləndirir və Azərbaycan dinamik fəaliyyəti ilə bu təşkilatın işinə böyük töhfə verir. Çu Sini, eyni zamanda, gələn il Bakıda UNESCO-nun Ümumdünya İrs Komitəsinin konfransının da keçiriləcəyini qeyd edərək bu tədbirin də önəm daşıdığını bildirdi. Prezident İlham Əliyev UNESCO-nun baş direktorunun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını xanım Odri Azuleyə çatdırmağı xahiş etdi.

## Prezident İlham Əliyev Parlamentlərarası İttifaqın prezidentini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Parlamentlərarası İttifaqın prezidenti xanım Qabriela Baronu qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı xanım Qabriela Barona VI Bakı Beynəlxalq Humanitar Forumunda iştirakına və orada çıxışına görə minnətdarlığını bildirdi.

Xanım Qabriela Baron bu tədbirə dəvət olunduğuna görə təşəkkür edərək Azərbaycana növbəti dəfə səfər etməsindən məmnunluğunu bildirdi. O qeyd etdi ki, bu tədbirdə Meksika parlamentinin deputatı olması ilə yanaşı, Parlamentlərarası İttifaqın prezidenti qismində də iştirak etməsi onun üçün böyük önəm daşıyır. Belə ki, bu təşkilat bu ilin dekabrında Azərbaycanda Gənc Parlamentarilərin V Qlobal Konfransının keçirilməsini planlaşdırır. Xanım Qabriela Baron Azərbaycanın bu mühüm tədbirə də ev sahibliyi etməsinə görə minnətdarlığını bildirdi və bunu çox yaxşı təşəbbüs kimi dəyərləndirdi. Söhbət zamanı Bakıda keçirilən Forumun ölkələr və xalqlar arasında əlaqələrin, eləcə də parlamentlərarası əməkdaşlığın inkişafına töhfə verdiyi vurğulandı.



## "Azərbaycan ilə BMT arasında uğurlu əməkdaşlıq həyata keçirilir"

*Azərbaycan Prezidenti İlham Əliyev BMT baş katibinin müavinini qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də BMT baş katibinin müavini Rəşid Xalikovu qəbul edib. AZƏRTAC xəbər verir ki, BMT-nin baş katibi Antonio Quterreşin salamlarını və xoş arzularını dövlətimizin başçısı İlham Əliyevə çatdıran Rəşid Xalikov Bakı Humanitar Forumunun əhəmiyyətindən bəhs etdi, bu tədbirin beynəlxalq əməkdaşlığa mühüm töhfələrindən danışdı.

Prezident İlham Əliyev BMT baş katibinin müavini Rəşid Xalikovun Forumda iştirakına və çıxışına görə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı İlham Əliyev Rəşid Xalikovun Forumda iştirakının və çıxışının BMT-nin bu tədbirə böyük önəm verməsinin göstəricisi olduğunu vurğuladı.

Azərbaycan Prezidenti baş katib Antonio Quterreş ilə ötən il BMT Baş Assambleyası çərçivəsində görüşünü məmnunluqla xatırladı. Dövlətimizin başçısı BMT baş katibinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarının Antonio Quterreşə çatdırılmasını xahiş etdi. Görüşdə Azərbaycan ilə BMT arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi, əlaqələrin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## "Azərbaycan ilə ISESCO arasında uzun illər ərzində uğurlu, səmərəli əməkdaşlıq qurulub"

*Prezident İlham Əliyev ISESCO-nun baş direktorunu qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycrini qəbul edib. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev ISESCO-nun baş direktoruna Forumda iştirakına və məzmunlu çıxışına görə təşəkkür etdi.

Əbdüləziz bin Osman əl-Tuveycri Bakı Humanitar Forumunun beynəlxalq əhəmiyyətindən bəhs edərək bildirdi ki, bu Forum çox gözəl və səmərəli nəticələri olan platformadır. Görüşdə Azərbaycan ilə ISESCO arasında uzun illər ərzində uğurlu, səmərəli əməkdaşlığın qurulduğu qeyd edildi, əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

Prezident İlham Əliyev ISESCO-nun Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın ədalətli mövqeyinə davamlı dəstəyinə görə minnətdarlığını bildirdi. Əbdüləziz bin Osman əl-Tuveycri Azərbaycanın ISESCO-nun baş konfransına rəhbərlik etdiyi 3 ilə dair baş direktorun hesabatı barədə dövlətimizin başçısına məlumat verdi. Bildirdi ki, ölkəmizin qurumun baş konfransına rəhbərlik etdiyi dövrdə həyata keçirilən uğurlu işlər bu hesabatda əksini tapıb.

## Humanitar Forum çərçivəsində Heydər Əliyev Mərkəzində innovativ məhsul və xidmətlər, startapçıların uğurlu tətbiqləri nümayiş olunur



Altıncı Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində Heydər Əliyev Mərkəzində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin innovativ məhsul və xidmətlərin, startapçıların uğurlu tətbiqlərinin nümayiş olunduğu pavilyonu da fəaliyyət göstərir.

AZƏRTAC xəbər verir ki, oktyabrın 25-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva pavilyonla tanış olub.

İnnovativ məhsul və xidmətlərin, startapçıların uğurlu tətbiqlərinin nümayiş olunduğu pavilyon "Robopark", "I2B İdeyadan Biznesə", "Startaplar" və "Kommersiyalaşdırılmış layihələr" zonalarından ibarətdir. Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə pavilyonla tanış olan Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya məlumat verdi ki, ümumilikdə pavilyonda robotiks kursları, dronlar, küləklə işləyən cihazlar, xilasedici, rəngləri tanıyıb müvafiq qaydada ayıra bilən, müxtəlif əşyaların yerini təyin edən robotlar nümayiş olunur. Pavilyonun kommersiyalaşdırılmış layihələr bölməsində Azərbaycanın rəqəmsal mədəni irsinin də təbliğ olunduğu "Google Art & Culture" beynəlxalq rəqəmli incəsənət və mədəniyyət platforması fəaliyyət göstərir. Belə ki, yüzlərlə təşkilat, müxtəlif tədbirlər, obyektlər, eləcə də bir neçə Azərbaycan muzeyinin rəqəmli kontentləri bu platformada cəmləşib. Bölmədə ziyarətçilərin diqqətini çəkəcək "Virtual cərrahiyyə" də təqdim olunur. Bu layihə rəqəmli texnologiyaların tətbiqi vasitəsilə bərpaedici cərrahiyyədə yüksək funksional və estetik nəticələr əldə etməyə imkan verir. Sözügedən layihələrin hər biri Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin yanında İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondundan qrant alıb və Yüksək Texnologiyalar Parkının rezidenti olan startap layihələridir.

Bundan başqa, pavilyonda "İdeyadan Biznesə" layihəsi çərçivəsində həm respublikanın ayrı-ayrı regionlarında, həm də Bakı şəhərində yerləşən ali təhsil ocaqlarından seçilən 3 qalib startapçı öz layihələrini təqdim edir. Bunlar "Xilaskar qolbaq", "Ağıllı ev" və "Virtual tur" layihələridir. "Xilaskar qolbaq" insan təzyiqində qeydə alınan problemlərlə bağlı yaxınlıqdakı tibb məntəqələrinə və ya sahə həkimlərinə məlumatların ötürülməsini təmin edir. "Ağıllı ev" məişət cihazlarının məsafədən idarə olunmasına hesablanıb. "Virtual tur" isə onlayn rejimdə turizm obyektlərinin müəyyən edilməsi, bronlaşdırılması üzrə tətbiqdir. Xaricdə təhsil alan startapçılar da nazirliyin pavilyonunda öz məhsullarını təqdim etmək şansı qazanıblar. Pavilyon "InnoExpo" adı altında "İnnovasiyalar həftəsi" çərçivəsində Heydər Əliyev Mərkəzində keçiriləcək tədbirlər zamanı da öz işini davam etdirəcək.

## Halit Eren: Bakı Beynəlxalq Humanitar Forumu aktual problemlərin müzakirəsi baxımından mühüm əhəmiyyət kəsb edir



Artıq altıncı dəfədir ki, təşkil edilən Bakı Beynəlxalq Humanitar Forumu mədəniyyətlərarası dialoqa böyük töhfə verir. Forumda müzakirə edilən mövzular dövrümüzün aktual problemlərini əhatə edir və burada onların həlli istiqamətində vacib fikir mübadiləsi aparılır.

Bu sözləri AZƏRTAC-a müsahibəsində VI Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçısı olan İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzinin (IRCICA) baş direktoru Halit Eren deyib. Halit Eren bildirib ki, Forum dünyanın bir çox ölkələrindən mütəxəssisləri, dövlət və hökumət rəsmilərini, ictimai-siyasi xadimləri, elm adamlarını, beynəlxalq təşkilatların təmsilçilərini bir araya gətirib. Aktual problemlərin həlli, dünyada yaşanan humanitar böhranların aradan qaldırılması istiqamətində yolların araşdırılması üçün belə platformaların təşkili olduqca mühüm əhəmiyyət kəsb edir. Bu cür beynəlxalq miqyaslı tədbirlər ölkələr və xalqlar arasında əlaqələri daha da möhkəmləndirir.

## UNESCO-nun xoşməramlı səfiri: Bakı Beynəlxalq Humanitar Forumunda dünyaya önəmli sülh və dostluq mesajları verilir



Altıncı Bakı Beynəlxalq Humanitar Forumu yüksək səviyyədə təşkil olunub. Prezident İlham Əliyevin Forumun açılışında söylədiyi nitq çox maraqlı idi. Xüsusilə Azərbaycandakı iqtisadi inkişaf, tolerantlıq barədə maraqlı məlumatlar əldə etdik. Forumun Bakıda keçirilməsi Azərbaycanın tolerantlıq modelinin dünyaya təqdim olunması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Fransanın tanınmış heykəltəraşı və rəssamı, UNESCO-nun xoşməramlı səfiri, təşkilatın sülh üzrə rəssamı, mədəniyyət diplomatiyasının nümayəndəsi xanım Hedva Ser bildirib. Altıncı Bakı Beynəlxalq Humanitar Forumunun işini yüksək qiymətləndirən Hedva Ser qeyd edib ki, müxtəlif mədəniyyətlərin nümayəndələrini bir araya gətirən bu Forumda dünyaya önəmli sülh və dostluq mesajları verilir. O, Forumda səslənən ideyaların, təkliflərin önəmini qeyd edib. Bakını sevdiyini söyləyən tanınmış memar burada tarixi binalarla yanaşı, möhtəşəm müasir tikililərin də olduğunu vurğuladı.

## Baş nazirin müavini Riçard Raşe: Slovakiya Azərbaycanla əməkdaşlıqda maraqlıdır



Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov VI Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etmək üçün ölkəmizdə səfərdə olan Slovakiya Respublikası Baş nazirinin investisiya və informasiyalaşdırma üzrə müavini Riçard Raşenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasındakı mövcud iqtisadi əlaqələr və əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub.

Azərbaycan-Slovakiya əlaqələrinin inkişaf etdiyini qeyd edən Baş nazirin müavini Əli Əhmədov hazırda ölkələrimizin iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən enerji, ticarət, investisiya qoyuluşu sahələrində əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində böyük potensialın olduğunu qeyd edib. Slovakiya Baş nazirinin müavini Riçard Raşe Foruma aldığı dəvətə görə təşəkkürünü bildirib. O, Azərbaycanda sürətli inkişafın şahidi olduğunu diqqətə çatdıraraq ikitərəfli əlaqələrin daha da genişlənməsi üçün ölkələrimizin potensialını vurğulayıb. Qonaq ölkəsinin xüsusilə turizm, informasiyalaşdırma və investisiya qoyuluşu sahələrində Azərbaycanla əməkdaşlığa maraq göstərdiyini qeyd edib. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Mixail Qusman: Bakı Beynəlxalq Humanitar Forumu getdikcə daha nüfuzlu və dünyamiqyaslı məkana çevrilir



Bakı Beynəlxalq Humanitar Forumu çox böyük bir hadisəyə çevrilib. Bu gün haqlı olaraq deyə bilərik ki, Bakı dünyanın humanitar paytaxtıdır. TAAS-ın baş direktorunun birinci müavini Mixail Qusman bu fikirləri VI Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində AZƏRTAC-a müsahibəsində söyləyib.

Mixail Qusmanın fikrincə, Azərbaycan Prezidenti İlham Əliyevin 2016-cı ili Azərbaycanda "Multikulturalizm İli" elan etməsi heç də təsadüfi deyildi. Heç də bütün ölkələrdə bu sahədə uğur qazanmaq mümkün olmur. Azərbaycan tarixən multikultural ölkədir. Burada həmişə tolerantlıq ab-havası hökm sürüb. Azərbaycan dünya mədəniyyətinin ən yaxşı nümunələri üçün daim açıq olub. Multikulturalizm Azərbaycana üzvi şəkildə xas olan cəhətdir, Azərbaycanda həyat tərzidir. TAAS-ın baş direktorunun birinci müavini deyib ki, Bakı Beynəlxalq Humanitar Forumunun böyük gələcəyi var. Bu forum ilbəil daha nüfuzlu və əlamətdar dünyamiqyaslı məkana çevrilir.

## Misir parlamenti sədrinin birinci müavini: "Azərbaycan beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edir"



Azərbaycanın beynəlxalq səviyyədə möhtəşəm tədbirlərə uğurla ev sahibliyi etməsi çox təqdirəlayiqdir. Altıncı Bakı Beynəlxalq Humanitar Forumunun yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə Misir xalqı adından minnətdarlığımı bildirirəm.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Humanitar Forumda iştirak edən Misir parlamenti sədrinin birinci müavini Əs-Seyyid Mahmud Əş-Şərif söyləyib. O, aktual məsələlərin müzakirəsi baxımından Forumun əhəmiyyətini yüksək qiymətləndirib, ölkəsinin bu cür beynəlxalq tədbirlərdə iştirak etməkdə maraqlı olduğunu söyləyib. Əs-Seyyid Mahmud Əş-Şərif deyib: "İkigünlük beynəlxalq tədbirdə müxtəlif dövlətlərin nümayəndələrinin iştirakı ilə qlobal problemlər müzakirə olunacaq, əhəmiyyətli mövzular ətrafında fikir mübadiləsi aparılacaq, vacib qərarlar qəbul olunacaq. Bütün bunlar dünyada müxtəlif sahələrin inkişafında əhəmiyyətli rol oynayacaq". Ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olduğunu deyən qonaq Misirin Azərbaycanla sıx əlaqələri bundan sonra da davam etdirməkdə maraqlı olduğunu söyləyib. O, Forumun mədəniyyətlərarası dialoqun inkişafına, xalqlarımız arasında əlaqələrin genişlənməsinə mühüm töhfələr verəcəyinə əminliyini bildirib.

## Emin: Azərbaycan haqqında mahnıların sayı çox ola bilməz



"Mənim Azərbaycanım" mahnısı "Mavi əbədiyyət" mahnısının əsasında yazılıb. Azərbaycanın Xalq artisti Emin Ağalarov AZƏRTAC-ın müxbiri ilə söhbətində bu barədə danışıb. O deyib: -"Mənim Azərbaycanım" mahnısı Müslüm Maqomayevin "Mavi əbədiyyət" mahnısının əsasında yazılıb. Bəstəkar Maksim Fadeyev ilə məsləhətləşəndən sonra istədik ki, bu mahnıda Müslüm Maqomayevin dəstxəti hiss olunsun. Bunu incə tərzdə etməyə çalışdıq. Klip Bakıda çəkilib. "Bu klip Azərbaycana həsr edilmiş layihənin bir hissəsidirmi?" sualının cavabında Emin deyib: "Bu, silsilə deyil. İş elə gətirdi ki, Brendon Stounun yazdığı bir mahnı mənim çox xoşuma gəldi. İkinci mahnını isə Maksim Fadeyev yazıb. Mən elə hesab etmirəm ki, Azərbaycana həsr edilmiş mahnıların sayı barədə hər hansı məhdudiyyət ola bilər. Azərbaycan haqqında mahnıların sayı çox ola bilməz".

# Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi istiqamətində görülən işlər müsbət qiymətləndirilib

*Oktyabrın 25-də Dayanıqlı İnkişafa dair Bakı Forumu çərçivəsində Azərbaycan Respublikası Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov BMT baş katibinin müavini Rəşid Xalikov və BMT-nin İnkişaf Proqramının Avropa və MDB regional bürosunun direktor müavini Rastislav Vrbenski ilə görüşüb.*



AZƏRTAC xəbər verir ki, görüşlərdə Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi istiqamətində görülən işlər müsbət qiymətləndirilib, bu sahədə gələcək əməkdaşlığa və həyata keçiriləcək tədbirlərə dair fikir mübadiləsi aparılıb.

Baş nazirin müavini Əli Əhmədovun Sudan Federal Hökumət Palatasının naziri Hamid Muhammed Elnar Ahmed ilə görüşündə isə hökumətlərarası əlaqələrin genişləndirilməsi, Dayanıqlı İnkişaf Məqsədləri üzrə iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlığa dair müzakirələr aparılıb.

# Dayanıqlı İnkişafa Dair Bakı Forumu

*Altıncı Beynəlxalq Humanitar Forum çərçivəsində oktyabrın 26-da Dayanıqlı İnkişafa Dair Bakı Forumu işə başlayıb. AZƏRTAC xəbər verir ki, "Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində regional tərəfdaşlığın gücləndirilməsi" mövzusuna həsr olunan Forumda əvvəlcə Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində görülən işlərə və qazanılan nailiyyətlərə dair videoçarx nümayiş etdirilib.*







Forumun moderatoru, "TRT World"un xəbər müxbiri xanım Maria Ramos Dayanıqlı İnkişaf Məqsədlərinə həsr olunmuş ilk Forumun Bakıda keçirilməsindən məmnunluğunu ifadə edib. O, Forumda dünyanın müxtəlif regionlarını təmsil edən 30-dan çox ölkədən nümayəndələrin iştirak etdiklərini diqqətə çatdırıb. M.Ramos Forumun əlamətdar günə - BMT-nin yaradılmasının 73-cü ildönümünə təsadüf etməsini xüsusi vurğulayıb, bu münasibətlə təbriklərini çatdırıb. O, bu Forumda regionda Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində Bakı prinsiplərinin müəyyən edildiyini vurğulayıb.

Azərbaycan Respublikası Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov Bakıda VI Beynəlxalq Humanitar Forumunun işə başlamasını, hazırda isə Dayanıqlı İnkişaf Məqsədlərinə dair Forumun keçirilməsini əlamətdar hadisə kimi qiymətləndirib.

Baş nazirin müavini vurğulayıb ki, bu gün bəşəriyyətin üzərində ciddi çalışdığı ən mühüm məsələlər arasında Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı Gündəliyin həyata keçirilməsi mühüm yer tutur. Dayanıqlı İnkişaf Məqsədləri üzrə götürdüyü öhdəliklərin həyata keçirilməsi Azərbaycanın dövlət siyasətinin ən əhəmiyyətli tərkib hissələrindən biridir.

Dayanıqlı İnkişaf Məqsədlərinin dünyada aclıq, yoxsulluq, qaçqın və məcburi köçkün problemi, ədalətsizliyin qarşısının alınması kimi mühüm problemlərin aradan qaldırılması baxımından mühüm sənəd olduğunu vurğulayan Əli Əhmədov bütün bunların bəşəriyyəti düşündürən və həlli vacib məsələlər olduğunu bildirib. Bu baxımdan Azərbaycanın dünyaya örnək olduğunu vurğulayan Baş nazirin müavini ölkəmizin 30 ilə yaxın müddətdə 1 milyondan çox qaçqın və məcburi köçkün problemi olmasına baxmayaraq, sürətlə inkişaf etdiyini diqqətə çatdırıb.

Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında regional əməkdaşlığın əhəmiyyətini xüsusi qeyd edən Əli Əhmədov bildirib ki, yalnız bu yolla sosial problemlərin həllinə nail ola, digər məsələlərlə bağlı ətraflı fikir mübadiləsi aparmaq imkan əldə edə bilərik.

Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının uğurlu fəaliyyətindən danışan Baş nazirin müavini Bakı Forumunun bu işə böyük töhfə verəcəyinə əminliyini bildirib.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İşhaqzai 73 il əvvəl qəbul olunan BMT Nizamnaməsinin və BMT-nin İnsan Hüquqları Bəyannaməsinin Minilliyin İnkişaf Məqsədlərinin əsasını təşkil etdiyini bildirib. Qeyd edib ki, Məqsədlərin həyata keçirilməsi üçün sözdən əmələ keçməyin vaxtı çatıb. 2030-cu ilə qədər yol xəritələri, milli planlar müəyyən edilməlidir. Gündəliyin tələblərinə uyğun olaraq QHT-lərin səyləri birləşdirilməli, innovasiyalardan istifadə edilməlidir. Bu isə bütün bəşəriyyətin kütləvi şəkildə səmərəli fəaliyyət göstərməsini şərtləndirir.

Azərbaycan hökumətinin BMT-nin ölkədəki hökuməti ilə səmərəli əməkdaşlıq etdiyini vurğulayan Qulam İşhaqzai buna görə minnətdarlığını bildirib. O, Bakı Forumunun 2030-cu ildə Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasına mühüm töhfə verəcək müzakirələrin aparılması baxımından əhəmiyyətini vurğulayıb. BMT-nin İqtisadi və Sosial Şurasının (ECOSOC) sədri xanım İnqa Ronda Kinq Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında digər istiqamətlərlə yanaşı, özəl sektora da böyük dəstəyin verilməsinin önəmini vurğulayıb.

# YAP-ın nümayəndələri İCAPP 10-cu Baş Assambleyasında iştirak edirlər

*Rusiyanın paytaxtı Moskva şəhərində Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransının (İCAPP) 10-cu Baş Assambleyası keçirilir. Tədbirdə Yeni Azərbaycan Partiyasının Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva və YAP Gənclər Birliyinin sədr müavini Ramin Məmmədov iştirak edirlər.*




Tədbirdə çıxış edən YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva bildirib ki, müasir qloballaşma prosesində dövlətlərin iqtisadi, siyasi cəhətdən bir-birinə inteqrarasiyası terrorizmin sərhədləri dağıdaraq bütün beynəlxalq aləmdə təhlükə yaratması ilə müşayiət olunur. Onun sözlərinə görə, Rusiya,Türkiyə, Fransa, Misir, İndoneziya və digər ölkələrdə baş vermiş dəhşətli hadisələr terrorizmin hər bir ölkə üçün ciddi təhlükə olduğunu və dünyada heç bir dövlətin ondan sığortalanmadığını göstərdi: "Separatizm beynəlxalq terrorizmin bir hissəsidir. Bu gün beynəlxalq terrorizm milli, dini zəmində inkişaf edərək özünü etnik separatizm kimi təzahür etdirir. Dözümsüzlük, radikalizm və ekstremizmə əsaslanan terrorizm hələ də müxtəlif regionlarda sülhə, təhlükəsizliyə, sabitliyə və inkişafa mənfi təsir göstərir. Təəssüf ki, inkişaf edən müasir dünya terrorçulara yeni imkanlar açır: yeni texnologiyalardan, internetdən istifadə etməklə insanların psixologiyasına təsir edərək təbliğat aparır, maliyyə əməliyyatları aparmaqla öz sıralarına gəncləri cəlb edirlər. Terrorizm təkcə bir ölkənin deyil ,eyni zamanda bütün siyasi partiyaların, dövlətlərin və beynəlxalq təşkilatların beynəlxalq hüquqa və insan haqlarına söykənən əməkdaşlığı da daxil olmaqla, ardıcıl və hərtərəfli yanaşma əsasında məğlub edilə biləcək bir şərdir. Bu gün terrorizmin yayılmasının qarşısını almaq üçün ilk növbədə həll olunmamış münaqişələrin aradan qaldırılmasına səy göstərmək, insan hüquqlarının pozulmasına rəvac verən səbəblərə qarşı çıxmaq, etnik və dini diskriminasiya kimi halların baş verməməsi üçün birgə fəaliyyət göstərməliyik . Azərbaycan terrorun nə olmasını çox yaxşı bilir. Etnik təmizləmələrin, hərbi təcavüzun nəticəsində 20% torpaqlarımız Ermənistan silahlı güvvələr tərəfindən işğal edilib. Nəticədə 1milyon insan doğma yurdlarından didərgin düşüb. Ermənistan həmçinin, münaqişə zonasından uzaqda yerləşən bölgələrdə yaşayan mülki əhaliyə qarşı da ictimai nəqliyyatda və mühüm infrastrukturun yerləşdiyi məkanlarda da terror aktları törətməklə savaş aparıb".

YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri onu da qeyd edib ki, hazirki dövrdə dini savadsızlıqdan etnik, dini münaqişələrin alovlanmasında istifadə olunur. Bu isə ekstremizm və terrorun yayılmasına səbəb olan radikalizmi, islamafobiyanı daha da gücləndirir. Onun sözlərinə görə, bütün millətlərin və dini konfessiyaların nümayəndələrinin sülh və qarşılıqlı anlaşma şəraitində yaşadığı çoxmillətli və çoxkonfessiyalı ölkə olaraq Azərbaycan sivilizasiyalararası dialoqa töhfə verməyə çalışır.

"Ölkəmiz müxtəlif dinlər arasında daha yaxşı anlaşmanın təmin olunmasına xidmət edən çoxsaylı işlər görür. Terrorizm beynəlxalq sülh və təhlükəsizliyə, insan haqlarına, demokratiyaya, dövlətlərin siyasi müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün təmin olunmasına ciddi təhdiddir. Səbəbindən asılı olmayaraq heç bir terrorizm aktına haqq qazandırıla bilməz. Dövlətlər arasındakı münaqişələr, hərbi aqressiya, separatizm və ekstremizmin yayılması terrorizm üçün əlverişli şərait yaradır və siyasi partiyalar üçün mübarizə hədəflərindən biri olmalıdır. Bu gün Azərbaycan nəinki öz təhlükəsizliyini , eləcə də regionda baş verən hadisələrə müsbət mənada təsir etməklə, sülhün bərqərar olması istiqamətində fəaliyyət göstərir. Çünki terrorizmdən əziyyət çəkən bir dövlət olaraq ölkəmiz onun necə bir bəla olduğunu yaxşı dərk edir və hesab edir ki, terrorizmin və terrorçunun milliyyəti, dini yoxdur, ona qarşı mütərəqqi dünyanın münasibəti eyni olmalıdır. İnsan həyatının nə qədər dəyərli olduğunu nəzərə alaraq, insanlığın qorunması üçün, münaqişələrin beynəlxalq hüquqa, qəbul edilmiş normalar və prinsiplər əsasında həll edilməsi, ölkələrimizdə sabitlik,təhlükəsizliyin təmini, gələcək nəsillərin sülh şəraitində yaşamalarının güclü əsasını qoymaqdan ötrü bu gün hər bir siyasi partiya da üzərinə düşən məsuliyyəti dərk etməlidir"-deyə, S.Fətəliyeva vurğulayıb.

Qeyd edək ki, İCAPP-ın 10-cu Baş Assambleyası öz işini oktyabrın 27-də yekunlaşdıracaq.

# “Qanunsuz səfərlər sifariş əsasında həyata keçirilib”

## *Fransanın bəzi yerli özünüidarəetmə orqanlarının rəhbərlərinin Azərbaycanın işğal edilmiş ərazilərinə səfərləri separatizmin və etnik təmizləmənin dəstəklənməsinə xidmət edir*

***Müasir dövrdə regional və beynəlxalq təhlükəsizliyə ciddi təhdidlər yaradan dağıdıcı - destruktiv faktorlar sırasında separatizm və təcavüzkar siyasət xüsusi yer tutur. Hazırkı reallıqlar və çağırışlar dünyada separatizmə qarşı vahid münasibət formalaşdırılmasını, bu məsələ ilə bağlı ikili standartlara yol verilməməsini, ayrı-ayrı ölkələr və beynəlxalq təşkilatların ikili standartlar siyasətinə son qoyaraq, separatçı rejimlərlə hər cür əlaqələri, eləcə də, onları dəstəkləməsini dayandırmasını diktə və tələb edir. Ermənistanın Azərbaycanın 20 faiz torpaqlarını işğal etməsi nəticəsində yaranmış qondarma və separatçı “Dağlıq Qarabağ” rejiminin mövcudluğu da, faktiki olaraq, beynəlxalq hüquq normalarının, eləcə də, ərazi bütövlüyünün pozulması və suverenlik prinsipinin heçə sayılmasının bariz nümunəsidir. Beynəlxalq ictimaiyyət anlamalıdır ki, dünya birliyini təhdid edən yeni münaqişə ocaqlarının yaranmasının qarşısını almağın yeganə yolu beynəlxalq hüququn təməl prinsipi olan dövlətlərin ərazi bütövlüyünün qeyd-şərtsiz dəstəklənməsidir.***



**Hikmət BABAOĞLU,
Milli Məclisin deputatı**

Bu, bir reallıqdır ki, Avrasiyanın mühüm geostrateji məntəqələrindən biri olan Cənubi Qafqaz regionunda Ermənistanın işğalçı siyasəti bölgənin təhlükəsizliyini ciddi təhdidlərlə qarşı-qarşıya qoyur. Ermənistanın Azərbaycanın 20 faiz torpaqlarını işğal etməsi nəticəsində yaranmış qondarma və separatçı “Dağlıq Qarabağ” rejiminin fəaliyyət göstərməsi isə, konkret olaraq, təcavüzkar iddiaların, separatizmin dayaqlarının güclənməsinə səbəb olur. Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarına bir sıra xarici şəxslərin səfərlərinin təşkil edilməsi də işğal altındakı Dağlıq Qarabağda yaradılan qondarma rejimi təbliğ etməyə, eyni zamanda, separatizmin təşviq olunmasına xidmət edir. Bununla da, beynəlxalq Konvensiyaların tələbləri ciddi şəkildə - kobud surətdə pozulur. Şübhəsiz ki, Azərbaycan Respublikası həmişə bu cür qanunazidd hərəkətlərin cavabını verir və müvafiq tədbirlər görür. Azərbaycanın işğal altında olan ərazilərinə qeyri-qanuni səfər edən şəxslər ölkə qanunvericiliyinə uyğun olaraq, məsuliyyətə cəlb olunurlar, onların Azərbaycana gəlişinə qadağa qoyulur. Fransanın Alforvil, Valans və Sent-Etyen şəhərlərinin merlərinin Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərinə qanunsuz səfərləri də, konkret olaraq, etnik təmizləmə və işğal faktının müdafiəsi olmaqla yanaşı, təxribat xarakterli addımdır. Yeri gəlmişkən, bu məsələ ilə bağlı Fransanın ölkəmizdəki səfiri Azərbaycanın Xarici İşlər Nazirliyinə çağırılıb, səfirə Fransa nümayəndələrinin Azərbaycanın maraqlarına, onun suverenliyinə və ərazi bütövlüyünə toxunan bir sıra addımları ilə, o cümlədən, Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsinə bu yaxınlarda Fransanın Sent-Etyen şəhərinin meri və Arnuvil bələdiyyəsinin rəhbəri tərəfindən edilmiş qanunsuz səfərlərlə bağlı rəsmi etiraz bildirilib. Fransa nümayəndələrinin bu kimi addımlarına hüquqi və siyasi qiymətləndirmə verilib. Fransa hökuməti bu ölkənin fiziki və hüquqi şəxslərinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş fəaliyyətinin qarşısının alınması üçün effektiv tədbirlər görməyə çağırılıb və qarşı tərəfə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin rəsmi notası təqdim olunub.

### Azərbaycanın işğal edilmiş ərazilərinə qanunsuz səfərlər konkret sifariş əsasında həyata keçirilib

Beləliklə, ötən ay ərzində Fransanın bir neçə bələdiyyə başçısının Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfərlər həyata keçirməsi Azərbaycan ictimaiyyətinin haqlı narazılığına və etirazına səbəb olub, bu addımların, hər şeydən əvvəl, beynəlxalq hüquq normaları və prinsiplərinə uyğun olmaması qətiyyətlə ifadə edilib. Bildirilir ki, ölkəmizin qanunlarına zidd olan bu hal Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində yaratdığı qondarma, separatçı rejimin təşviqinə xidmət edir. İlleqal xarakter daşıyan bu səfərlərin konkret göstərişlər əsasında həyata keçirilməsi də şübhə doğurmur. Azərbaycana qarşı qərəzli mövqeyi ilə seçilən və erməni lobbisinin təsiri altında olan Fransa Milli Məclisinin sabiq deputatı Fransua Roşebluanın, habelə, Fransada fəaliyyət göstərən qondarma rejim ilə “dostluq dərnəyi”nin digər üzvlərinin belə səfərlərə qoşulmaları səfərin siyasi direktivlər əsasında təşkil edilməsi və reallaşdırılmasının göstəricisidir. Şübhəsiz ki, Fransua Roşebluanın Ermənistan vətəndaşlığı alması və ona bu ölkənin pasportunun verilməsi təsadüfi deyil. O, fəaliyyəti dövründə erməni lobbisinin direktivlərini yerinə yetirib və ermənilərin maraqlarının müdafiəçisi kimi çıxış edib.

### Separatçılarla “bəyannamə”lər imzalanması etnik təmizləmə faktına və siyasətinə dəstək verməkdir

Azərbaycan ərazisinin 20 faizini işğal edən və hələ də işğal altında saxlayan Ermənistan tərəfindən azərbaycanlılara qarşı kütləvi etnik təmizləmənin həyata keçirilməsi, xalqımızın terror və cinayətlərə məruz qalması reallıqdır. Bu vandalizm aktlarının nəticələri bütün dünyaya, o cümlədən, Fransa ictimaiyyətinə də yaxşı məlumdur. Bu tarixi faktların fonunda Fransanın bəzi yerli özünüidarəetmə orqanlarının rəhbərlərinin Azərbaycanın işğal olunmuş ərazilərinə təxribat xarakterli səfərlər etməsi yolverilməzdir. Ən əsası, Fransadan olan merlərin işğaldan əvvəl azərbaycanlıların yaşadığı Qarabağın tarixi mərkəzi Şuşa və Laçın şəhərlərinin hazırkı qondarma yerli hakimiyyətləri ilə “bəyanname”lər imzalamaları insanlığa qarşı cinayət olan etnik təmizləmənin nəticələrini razılıqla qarşılamaq - bu vandalizm aktına dəstək vermək deməkdir. Bu isə, təkcə Azərbaycana münasibətdə beynəlxalq hüquq normaları və prinsiplərinin pozulması deyil, bütövlükdə, milli dövlətlərin ərazi bütövlüyü və suverenliyinin heçə sayılmasıdır. Digər tərəfdən, bu cür yolverilməz addımlar mənfi presedentlər meydana çıxarır, eyni zamanda, regional və beynəlxalq təhlükəsizliyə ciddi təhdidlər yaradır. Belə hallar etnik separatizmi təşviq edə bilər. Ona görə də, qlobal miqyasda təhlükəsizliyə, əməkdaşlığa önəm verdiyini ifadə və iddia edən Fransanın bu cür hallarını nəzərə alması, müvafiq tədbirlər görərək, onları aradan qaldırması zəruridir.

### Yerli özünüidarəetmə orqanlarının təxribatçı hərəkətləri Fransa ilə Azərbaycan arasında imzalanmış sazişlərin mahiyyətinə ziddir

Şübhəsiz ki, bəhs olunan təxribatçı hərəkətlər Fransa və Azərbaycan arasında imzalanmış sazişlərin ruhuna ziddir. Azərbaycanın ərazi bütövlüyünü tanıyan Fransanın bəzi yerli özünüidarəetmə orqanlarının rəhbərlərinin Ermənistan tərəfindən işğal edilmiş ərazilərimizə səfərlər etməsi, bilavasitə respublikamızın ərazi bütövlüyü və suverenliyinə hörmətsizlik olmaqla yanaşı, ikitərəfli münasibətlərin mahiyyətinə uyğun deyil.

Digər tərəfdən, bu cür təxribatçı hərəkətlər bu ölkənin milli qanunları ilə də ziddiyyət təşkil edir. Belə ki, Fransanın xarici işlər və Avropa məsələləri üzrə naziri və daxili işlər naziri tərəfindən 2018-ci ilin 24 may tarixində “Yerli özünüidarəetmə orqanlarının xarici fəaliyyətinin hüquqi çərçivəsi” haqqında imzalanmış təmimi təlimat bu qurumları Fransanın beynəlxalq öhdəliklərinə hörmət etməyə çağırır. Təlimat, eyni zamanda, bu ölkə tərəfindən tanınmamış ərazi vahidlərinin separatçı qurumları ilə hər hansı bir formada müqavilələr bağlamağı, səfərlər həyata keçirməyi və birgə tədbirlər təşkil etməyi qadağan edir. Fransa Konstitusiyasının 73-cü maddəsi və yerli özünüidarəetmə orqanlarının ümumi kodeksinin L.1115-1 maddəsinə uyğun olaraq, qəbul edilmiş və qüvvədə olan bu təmimi təlimat məcburi xarakter daşıyır, yəni imperativ xarakterlidir. Yəni Fransanın Xarici İşlər və Avropa Məsələləri üzrə Nazirliyi ilə Daxili İşlər Nazirliyi arasında imzalanmış sənədə əsasən, Fransada fəaliyyət göstərən yerli özünüidarəetmə orqanları ölkənin xarici siyasətinə zidd olan bəyanatlar, səfərlər və digər bu kimi addımlardan çəkinməlidirlər. Lakin sözügedən məsələnin fonunda biz bunun tamamilə əksini müşahidə edirik. Nədənsə, Fransa hökuməti bu sənədin müddəalarının Azərbaycanın suverenliyi və ərazi bütövlüyü məsələsinə dair dərhal və şərtsiz həyata keçirilməsi üçün müvafiq addımların atılması istiqamətində qətiyyət göstərmir. Azərbaycan ictimaiyyəti, haqlı olaraq, Fransa hökumətindən bu məsələdə ədalət prinsipinə söykənərək, qətiyyət və əməli fəaliyyət gözləyir.

### Separatizmin təşviqinə xidmət edən qanunsuz addımlar Fransanın ATƏT-in Minsk Qrupunun həmsədri qismində nüfuzuna ciddi xələl gətirir

Fransa Ermənistanın hərbi təcavüzü nəticəsində meydana çıxan, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ və yeddi ətraf rayonun işğal edilməsi nəticəsində yaranan, bir milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkün həyatı yaşamağa məhkum olmasına səbəb olan Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində vasitəçilik missiyasını yerinə yetirən ATƏT-in Minsk Qrupunun həmsədr dövlətlərindən biridir. Bu dövlət ATƏT-in Minsk Qrupu çərçivəsində öz mandatına uyğun olaraq, tərəfsiz və obyektiv mövqe tutmalı, münaqişənin beynəlxalq hüquq normaları əsasında, yəni Azərbaycanın ərazi bütövlüyü çərçivəsində ədalətli həllinə nail olmaq üçün fəaliyyət göstərməlidir. Bu fəaliyyət çərçivəsində işğal faktının aradan qaldırılmasına mane olan təxribatçı və separatçı hərəkətlərin qarşısının alınmasına da xüsu-

# “Qanunsuz səfərlər sifariş əsasında həyata keçirilib”

## Fransanın bəzi yerli özünüidarəetmə orqanlarının rəhbərlərinin Azərbaycanın işğal edilmiş ərazilərinə səfərləri separatizmin və etnik təmizləmənin dəstəklənməsinə xidmət edir

si diqqət yetirməlidir. Lakin təəssüflər olsun ki, Fransanın bəhs olunan yerli özünüidarəetmə orqanlarının qanunsuz addımları, nəinki Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə həlli prosesinə yardım etmir, üstəlik, bu ölkənin vasitəçi qismində nüfuzuna ciddi xələl gətirir, Fransa barəsində etimadın ciddi şəkildə sarsılmasına xidmət edir.

Fransa Xarici İşlər Nazirliyi tərəfindən qondarma rejimin tanınmaması barəsində açıqlama verilsə də, bu, qənaətbəxş xarakter daşımır. Fransa, nəinki bu qondarma rejimi tanımamalı, BMT Təhlükəsizlik Şurasının daimi üzvü olaraq Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını tələb etməlidir. Çünki bu ölkəyə də, yaxşı məlumdur ki, Ermənistanın hələ də Azərbaycan ərazisinin 20 faizini işğal altında saxlaması beynəlxalq hüquq normalarının, BMT-nin 822, 853, 874 və 884 saylı qətnamələrinin tələblərinə ziddir, işğalçı qoşunlar dərhal və qeyd-şərtsiz Azərbaycanın torpaqlarından çıxarılmalıdır.

### Fransa hökuməti bu ölkədə yerləşərək Azərbaycana qarşı terror və zorakılıq çağırışları ilə çıxış edən şəxslərə qarşı hüquqi tədbirlər görməlidir

Azərbaycan dövlətinin daxili və xarici siyasət kursu milli maraqlara əsaslanır. Eyni zamanda, respublikamız ikitərəfli və çoxtərəfli münasibətlər çərçivəsində öz milli maraqlarını rəhbər tutmaqla yanaşı, digər dövlətlərin mənafelərini nəzərə alır, bərabərhüquqlu əməkdaşlıq münasibətlərinin qarşılıqlı hörmət prinsipi əsasında davam və inkişaf etdirilməsinin tərəfdarı olduğunu nümayiş etdirir. Azərbaycan, digər ölkələrlə olduğu kimi, Fransa ilə münasibətlərdə də bu prinsipləri əsas götürür. Fransa da, Azərbaycanın milli və dövlətçilik maraqlarını nəzərə almaqla, müəyyən məsələlərlə bağlı müvafiq addımlar atmalıdır. Bu kontekstdə Fransanın bəzi yerli özünüidarəetmə orqanlarının yuxarıda bəhs olunan təxribatçı hərəkətlərinin qarşısını alması zəruridir. Digər tərəfdən, özünü mühacir adlandıran bəzi Azərbaycan vətəndaşlarının Fransanın ərazisində yerləşərək ölkəmizdə terror və zorakılığa çağıran bəyanatlarla çıxış etməsi sirr deyil. Bu, Azərbaycanın milli maraqlarına zidd olmaqla yanaşı, ölkə ictimaiyyəti tərəfindən ciddi ikrah hissi ilə qarşılanır və qətiyyətlə pislənilir. Azərbaycan ictimaiyyəti Fransa hökumətinin bu cür halların qarşısını almasının zəruriliyini bəyan edir. Lakin təəssüflər olsun ki, bu ölkənin hökuməti tərəfindən Azərbaycanın milli və dövlətçilik maraqlarına zidd mövqe tutan, terrora və zorakılığa çağırış edən və beləliklə, qanunazidd hərəkətlərə yol verən həmin şəxslərin fəaliyyətinin qarşısını almaq üçün heç bir hüquqi tədbir görülmür.

### Fransa ölkəmizə münasibətdə qeyri-məqbul mövqeyini davam etdirsə, Azərbaycan bu ölkə şirkətləri ilə əlaqələrini yenidən nəzərdən keçirə bilər

Bəhs olunan məqamlarla yanaşı, digər bir nüansa da toxunmaq məqsədəmüvafiqdir. Məlumdur ki, Fransa şirkətləri Azərbaycanda dövlət sifarişi ilə həyata keçirilən çoxsaylı layihələrdə iştirak edirlər. Bu layihələrin dəyəri təqribən 2 milyard avroya yaxındır. Bu sırada “Suez”, “Total”, “Thales International” və digərlərini qeyd edə bilərik. Belə layihələrin həyata keçirilməsi, şübhəsiz ki, Fransanın iqtisadi maraqlarına uyğundur və bu ölkənin əhəmiyyətli gəlir əldə etməsinə imkanlar yaradıb. Şübhəsiz ki, bunun müqabilində Fransanın ikitərəfli əməkdaşlıq, eləcə də, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesi kontekstində tutduğu mövqe məqbul deyil. Əgər Fransa Azərbaycana münasibətdə belə mövqe sərgiləyərək, bu cür hallara yol verməkdə davam edəcəksə, Azərbaycan bu ölkə şirkətləri ilə əlaqələrini yenidən nəzərdən keçirə bilər.

### Başqa bir millətin onun xalqının tarixini yazmasının ən yüksək səviyyədə ifadə edilməsi öz millətinə qarşı hörmətsizliyin nümunəsidir

Nəticə etibarilə, Fransanın bəzi yerli idarəetmə orqanlarının rəhbərlərinin təxribatçı hərəkətləri yolverilməzdir. Bu, qeyd etdiyimiz kimi, bilavasitə separatizmin təşviqinə və etnik təmizləmənin dəstəklənməsinə xidmət edir. Digər bir sıra hallar da separatizmin təşviqinə xidmət edən nümunələr sırasında yer alır. Bu ölkənin tarixini ermənilərin yaratdığının ifadə edilməsi və ermənilərin fransızların yarımhəmyerliləri olmasının vurğulanması da təəccüb doğuran hal kimi bu qəbildən olan nümunələrdəndir. Üstəlik, ermənilərin Fransa tarixinin bir hissəsi və fəxr predmeti olduğunun vurğulanması da birmənalı qarşılanmayan təəccüblü haldır. Ən əsası, bütün bunlar Fransa xalqına qarşı hörmətsizliyin bariz nümunəsi və ifadəsidir.

Bütövlükdə, yaxşı olar ki, Fransa hökuməti rasional və praqmatik mövqe nümayiş etdirərək bu ölkənin fiziki və hüquqi şəxslərinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş fəaliyyətinin qarşısının alınması üçün effektiv tədbirlər görsün.



## Azad Rəhimov: Naxçıvan gəncləri fəallıqları ilə seçilirlər

Naxçıvan gəncləri daim çox fəal olublar. Tədbirlər, o cümlədən müxtəlif layihələrə bağlı həm Gənclər və İdman Nazirliyinə, həm də gənclər təşkilatlarına onlardan çox sayda təkliflər daxil olur, ideyalar irəli sürülür. Bu sözləri AZƏRTAC-ın Naxçıvan bürosuna müsahibəsində Azərbaycan Respublikası gənclər və idman naziri Azad Rəhimov deyib. “Məlum olduğu kimi, 3 ildən bir keçirilən ümumrespublika gənclər forumuna hazırlıq işləri görülür. Bununla əlaqədar oktyabrın 24-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında muxtar respublikanın 7 rayonunun, həmçinin Naxçıvan şəhərinin fəal gənclərinin iştirakı ilə tədbir keçirildi, Azərbaycan Gənclərinin VIII Forumuna nümayəndələr seçildi”, - deyən Azad Rəhimov qeyd edib ki, forum Bakıda təşkil olunacaq.

“Azərbaycan gənclərinin ən böyük tədbirini fərqli bir formatda, fərqli bir şəkildə keçirmək istəyirik”, - deyən nazir diqqətə çatdırıb ki, Bakıda keçiriləcək gənclərin növbəti forumu həm də gənclər siyasəti, gənclərlə iş sahəsində görülən işlərin hesabatıdır. Belə ki, ölkəmizdə gənclərlə bağlı sosial, iqtisadi və digər məsələlərin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən fərman və sərəncamlar, qanunlar, dövlət proqramları qəbul edilib. Həmin sənədlər gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşmasına, onların mənəvi-ideoloji cəhətdən tam yetkinləşməsinə, sosial problemlərinin həllinə, faydalı məşğulluğunun təmin olunmasına son dərəcə müsbət təsir göstərib. Bakıda keçiriləcək forumda da Azərbaycan gəncliyinin inkişafına yönəlmiş Dövlət Proqramının icrası ilə bağlı hesabatlar dinləniləcək.

## Ermənistanda kütləvi ixtisarlar



Növbədənkənar parlament seçkilərindən sonra, yeni hökumətin formalaşdırılmasına qədər, müvəqqəti hökumətdə əsasən maliyyə nazirliyində ciddi kadr ixtisarları aparılır. SİA xəbər verir ki, bu barədə “Jamanak” qəzeti yazır. Erməni nəşrinin qeyd etdiyinə görə, xüsusilə 150-yə yaxın müqavilə ilə işləyən əməkdaş ixtisara salınıb.

“Özü də deyiblər ki, hökumətin qərarı ilə həyata keçirilən bu pilot proqramıdır və əgər bu qurumda az saylı əməkdaşlarla zərərsiz şəkildə işləmək müəyyənləşərsə, digər nazirliklərdə də ixtisarlar gözlənilə bilər. Müqavilə əsasında işləyən bütün əməkdaşlar ixtisara salınacaqlar”, adıçəkilən qəzet yazır.



## “Sığorta pulu ilə bağlı olan həmin sənədlər araşdırılır”

“Hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə şəhid ailələrinin vərəsələri ilə bağlı sənədlər gəlir. Sığorta pulu ilə bağlı olan həmin sənədlər araşdırılır”. SİA xəbər verir ki, bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deyib. O bildirib ki, sənədlər təsdiqləndikdən sonra ödənişlərin həyata keçirilməsinə başlanılacaq: “Ödəniş hissə-hissə olacaq. Birdəfəlik müavinətləri nazirlik birbaşa həmin şəxslərin hesabına köçürəcək. Bu prosesdə vətəndaşla şəxsi təmas olmayacaq”.

## “Azərbaycan kosmosu fəth edən ölkələrdən biridir”

Azərbaycan hökuməti bütün sahələrdə inkişafı təşviq edir. SİA-nın verdiyi məlumata görə, bunu nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə VI Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində keçirilən “İnnovasiyalar yaradıcı iqtisadiyyatın yeni mənbəyi kimi” plenar sessiyasında çıxışı zamanı deyib. Azərbaycanda Yüksək Texnologiyalar Parkının fəaliyyət göstərdiyini tədbir iştirakçılarının nəzərinə çatdıran E.Vəlizadə əlavə edib ki, hazırda Azərbaycan kosmosu fəth edən ölkələrdən biridir: “Bu, inkişafda olan ölkə üçün çox gözəl nəticədir”. Azərbaycanda əhalinin internetə əlçatanlığı imkanlarının ildən-ilə artdığını söyləyən nazir müavini hesab edir ki, Azərbaycanda innovativ inkişaf və yeni investisiyaların cəlbi innovativ layihələrin həyata keçirilməsinə imkan verir.

# Azərbaycan və Türkiyə bütün dünyaya həmrəylik nümunəsi göstərir




**_Ümumi neft emalı gücü 10 milyon ton, əsas xammal tədarükçüsü Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR olan "Star" Zavodu Avropa, Yaxın Şərq və Afrika bölgələrində ən böyük müəssisələrdən biridir. "Star" Neft Emalı Zavodu Türkiyədə özəl sektorun ən böyük investisiya layihəsidir və xüsusilə, qeyd etmək lazımdır ki, SOCAR 19,5 milyard dollarlıq investisiya paketi ilə Türkiyə tarixində ən böyük xarici sərmayəçidir. Bir sözlə, SOCAR müxtəlif layihələrə yatırılan sərmayələr nəticəsində, Türkiyənin ən böyük investoruna çevrilib._**

Həyata keçirilmə müddətində 19 min 500 işçinin çalışdığı bu layihə Azərbaycanın bölgədə reallaşdırdığı nəhəng, qlobal layihələrindən heç də geri qalmır. Əksinə, istehsala başladığı zaman 1100 nəfərin yeni iş yeri ilə təmin olunacağı, neftin qiymətindən asılı olaraq, hər il 6-8 milyard dollarlıq ticarət həcmi formalaşdıracağı "Star", strateji məhsulların istehsalında əhəmiyyətli rola malikdir. Türkiyənin idxaldan asılılığını əhəmiyyətli dərəcədə azaltmaqla ölkə iqtisadiyyatına 1,5 milyard dollar əlavə gəlir qazandıracaq bu müəssisə çox böyük enerji layihəsidir. Türkiyə və Azərbaycan iqtisadiyyatına mühüm fayda verməklə yanaşı, bu zavod, təbii ki, bölgənin rifahını da yüksəltmiş olacaq.

"Star" Neft Emalı Zavodunun iqtisadi səmərəliliyi, sözsüz ki, kifayət qədər çoxdur və hər iki ölkənin maliyyə imkanlarının hər il əhəmiyyətli dərəcədə artmasına vercəyi töhfələr də danılmazdır. Təbii ki, iqtisadi yüksəliş, iqtisadi inkişaf dövlətlərin hər sahədə inkişafını təmin edir və iqtisadiyyatı güclü olan ölkə güclü ölkədir. Məsələ burasındadır ki, bu layihə təkcə iqtisadi səmərəliliyi ilə xarakterizə edilə bilməz. İndi bu layihə, yəni "Star" Neft Emalı Zavodunun istismara hazır olması, istifadəyə verilməsi dünya ictimaiyyətinin diqqət mərkəzindədir. İki qardaş ölkəni biri-biri ilə daha da yaxınlaşdıran bu layihə Azərbaycan-Türkiyə dostluğunun əbədi və sarsılmaz olduğunu bir daha təsdiq edir. Bir daha təsdiq edir ki, biz eyni köklər üzərində böyüyən ulu bir çinarın budaqlarıyıq və həmin çinarın kölgəsi həyata keçirilən layihələrlə bu gün Qafqazdan Avropayadək bir çox ölkəyə qədər uzanır.

Hazırda XXI əsrin enerji tarixini Türkiyə və Azərbaycan birlikdə yazır və bu tarixi əhəmiyyətli layihələr iki ölkənin ağıl, iradə və güc birliyi ilə reallaşır. Bakı-Tbilisi-Qars, Bakı-Tbilisi-Ceyhan, TANAP, "Star" Neft Emalı Zavodu layihələri Türkiyə-Azərbaycan münasibətlərinin bağlarını daha da möhkəmləndirir. Bu qlobal əhəmiyyətli, bütün Qafqazın, Orta Asiyanın və hətta Avropanın enerji təhlükəsizliyinə töhfələr verən layihələr Azərbaycan-Türkiyə qardaşlığının timsalında dostluq rəmzi hesab olunmaqdadır. Həmin layihələr ölkələrimiz arasındakı münasibətlərin "Bir millət, iki dövlət" anlayışına sadiqliyini bir daha təsdiq edir. Eyni zamanda, təsdiq edir ki, bir-birinin ardınca möhtəşəm layihələrə imza atmaq, həmin layihələri reallaşdırmaq üçün hər iki ölkənin liderlərində, dövlət başçılarında güclü siyasi iradə var və hər bir məqsədə, hər bir hədəfə uğurla çatmaq əzmindədirlər.

**Qlobal layihələrin reallaşması iki qardaş ölkə arasındakı münasibətlərin əbədiyyətə daşınması deməkdir və bizim birliyimiz gücümüzü ifadə edir**





## Türkiyə və Azərbaycan XXI əsrin enerji tarixini birlikdə yazır

Azərbaycanın Türkiyə ilə daha da yaxınlaşması, əslində, düşmənlərimiz üçün, torpaqlarımızı işğal edənlər və onlara dəstək verənlər üçün heç də arzuolunan deyil. Dünya miqyasında söz sahibi olan Türkiyə ilə münasibətlərin daha da dərinləşməsi indi çoxlarının yuxusunu ərşə çəkib. Bütün dünyanın hesablaşdığı Türkiyə ilə daha isti münasibətlərin qurulması, Bakı-Tbilisi-Qars, Bakı-Tbilisi-Ceyhan, TANAP, "Star" Neft Emalı Zavodu kimi layihələrlə bu münasibətlərin əbədiyyətə daşınması bizim birliyimizi ifadə edir və güclü olduğumuzu təsdiqləyir. Təsdiq edir ki, bizim gücümüz birliyimizdədir. Türkiyə və Azərbaycanın birgə həyata keçirdiyi layihələr ölkələrimizin regional gücə çevrilməsini şərtləndirir. Dünyanı böhranlar və ticarət müharibələri bürüdüyü bir zamanda, bir-birinin ardınca reallaşdırılan nəhəng layihələr ölkələrimizin öz hədəflərinə yaxınlaşdığını sübut edir.

**Sabitliyin, əmin-amanlığın təmin olunması qaydaları istisnasız bütün dövlətlər üçün tətbiq edilməzsə, kimsə gələcəyinə əminliklə baxa bilməz**

Təsadüfi deyil ki, Türkiyənin Prezidenti Cənab Tayyib Ərdoğan öz nitqində düşmənlərimizə, eləcə də, bütün dünyaya mesaj ünvanlayır ki, Azərbaycan torpaqlarının 20 faizinin əsrin dörddəbiri qədər işğal altında qalması qəbul edilə bilməz. Türkiyənin Prezidenti açıq şəkildə bəyan edir ki, Türkiyənin və Azərbaycanın bu münaqişənin həlli istiqamətində göstərdiyi təşəbbüslərə beynəlxalq ictimaiyyət daha səssiz qalmamalıdır. Eyni zamanda, diqqətə çatdırır ki, BMT başda olmaqla, regional və qlobal problemlərin həlli üçün qurulan təşkilatların bu səssizliyi onların özlərini də məhvə sürükləyir. Haqq-ədalət duyğusundan uzaq, içi boş olan beynəlxalq qurumun heç bir cəmiyyətin və şəxsin gözündə etibarı qalmayacağını da xatırladır öz nitqində. Qarabağ məsələsi başda olmaqla, dünyada ortaya çıxan haqsızlıqlara beynəlxalq ictimaiyyətin "Dur!" deməsini gözləyirik" deyən Cənab Tayyib Ərdoğan, həmçinin vurğulayıb ki, sabitliyin, əmin-amanlığın, rifahın təmin olunması qaydaları istisnasız bütün dövlətlər üçün tətbiq edilməzsə, kimsə gələcəyinə əminliklə baxa bilməz. Qardaş ölkənin Prezidenti, əslində, çox aydın şəkildə mesaj verir və bildirir ki, Türkiyə və Azərbaycan olaraq, biz istənilən vəziyyətdə və şərtlər altında inandığımız dəyərlər uğrunda apardığımız birgə mübarizəni davam etdirəcəyik.

Türkiyə Prezidenti Cənab Tayyib Ərdoğanın "Star" Neft Emalı Fondunun açılışında ifadə etdikləri, əslində, yuxarıda qeyd etdiyimiz kimi, çox sadə və aydın şəkildə anlaşılacaq bir mesajdır. Bu mesaj bütün dünyaya ünvanlanıb və bununla xatırladılır ki, Azərbaycanın haqq işi, torpaqlarının işğaldan azad olunması, geri qaytarılması yolunda qardaş Türkiyə Azərbaycanın yanındadır. Xatırladılır ki, Azərbaycanın dəyərləri Türkiyənin dəyərləridir və biz bu dəyərlər uğrunda mübarizəmizi birgə aparırıq.

Göründüyü kimi, "Star" Neft Emalı Fondu yalnız iqtisadi səmərəliliyi ilə xarakterizə edilə bilməz və bu layihənin əhəmiyyəti daha çox təhlükəsizliyin və sabitliyin təmin edilməsi ilə ölçülməlidir. Regionda təhlükəsizliyin təmin edilməsi, ələlxüsus, hazırkı dönəmdə, yəni məhz bölgədə işğalçıların separatçılıq siyasəti yürütdüyü bir vaxtda daha önəmlidir. Bu baxımdan, iki qardaş ölkə arasında həmrəyliyin, əməkdaşlığın daha da genişləndirilməsi, xüsusilə, təqdirəlayiqdir. Nəinki Ermənistan kimi səfalət içində olan işğalçı kiçik bir ölkə, eləcə də, bütün dünya ölkələri indi çox yaxşı başa düşürlər ki, Azərbaycan-Türkiyə qardaşlığı, əməkdaşlığı, birliyi inkar edilə bilməz və bu birlik ölkələrimizin gücündən xəbər verir. Çox yaxşı başa düşürlər ki, iki qardaş ölkənin əməkdaşlığı, həmrəyliyi, birlyi artdıqca onların güçü durmadan artır və bu birliyin, bu gücün və qüdrətin qarşısında heç bir qüvvə dayana bilməz.

*İnam HACIYEV*

# Azərbaycan gəncliyi cəmiyyətin inkişafında fəal sosial təbəqəyə çevrilib

**Ölkəmizdə həyata keçirilən dövlət-gənclər siyasəti gənclərin hərtərəfli inkişafını, onların cəmiyyət həyatında fəal iştirakını təmin edir. Bu siyasət gənclərin təhsili, tərbiyəsi, sağlamlığı, intellektual və mənəvi inkişafı, asudə vaxtının səmərəli təşkili, cəmiyyətin bütün sahələrində fəal iştirakı ilə bağlı məsələləri əhatə edir.**



Azərbaycan Prezidenti Cənab İlham Əliyev tərəfindən həyata keçirilən dövlət-gənclər siyasəti nəticəsində, Azərbaycan gəncliyi cəmiyyətin inkişafında fəal sosial təbəqəyə çevrilib. Azərbaycan gənclərinin dünya gəncləri sırasında, gənclər təşkilatlarının arasında rolu və nüfuzu artıb. Bu nailiyyətlərin əldə olunmasında, əlbəttə ki, Azərbaycan Prezidentinin gənclərlə bağlı imzaladığı sərəncamların həyata keçirilməsi danılmazdır. Belə ki, dövlət başçısının gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi məqsədilə imzaladığı dövlət proqramları gənclərə olan dövlət qayğısının artırılması məqsədinə xidmət edir. Şübhəsiz ki, heç bir dövlətdə gənclərlə bağlı bu qədər dövlət proqramları qəbul olunmayıb. Görülən işlərin davamı olaraq, Azərbaycan Prezidentinin Sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsasən hazırlanmışdır. Ölkədə gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək məqsədi ilə həyata keçirilən tədbirlər, sözsüz ki, gənclərin inkişafına təsirini göstərib.

Bu sahə ilə bağlı mövcud olan normativ-hüquqi baza, mütəmadi olaraq, təkmilləşdirilir. Prezident İlham Əliyevin 26 yanvar 2015-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" dövlət-gənclər siyasətini yeni mərhələyə yüksəltdi. Strategiyanın icrasının nəticəsi olaraq, 2025-ci ilin sonuna qədər gənclər arasında təhsil səviyyəsinin və peşə təhsili alanların sayının artırılması, gənc məzunların ixtisaslarına uyğun işlə təmin edilməsi səviyyəsinin yüksəldilməsinə nail olunacaq.

Gənclərin və gənc ailələrin mənzil ehtiyaclarının ödənilməsi məqsədi ilə sosial ipotekanın şərtləri daha da təkmilləşdirilir, gənclər, o cümlədən, sağlamlıq imkanları məhdud olan gənclər üçün tədbirlər həyata keçirilir. 2020-ci ilə kimi ölkədə fəaliyyət göstərən bütün respublika idman federasiyaları, idman klubları, uşaq-gənclər idman məktəbləri üçün müvafiq idman növləri üzrə ixtisaslaşdırılmış təlim-idman bazaları yaradılacaq. Həyata keçirilən tədbirlər kadr hazırlığı məsələlərini daha da təkmilləşdirir, bu sahədə çalışan mütəxəssislərin sosial müdafiəsi gücləndirilir.

Bütün görülən işlər dövlətin düşünülmüş və ardıcıl həyata keçirdiyi siyasət nəticəsində ölkə gənclərinin inkişafı üçün şərait yaradır.

Qloballaşma dövründə milli maraqlara və milli dəyərlərə əsaslanan, beynəlxalq təcrübəni nəzərə alan Azərbaycan dövlətinin gənclər siyasəti gəncləri ölkədə gedən proseslərdə həm iştirakçı, həm də bəhrələnən sosial qrup kimi qəbul edir. Gənclərin cəmiyyətin bütün sferalarında iştirakı, onların aparıcı qüvvəyə çevrilməsi məqsədi ilə ardıcıl işlər görülməkdədir. Bu gün Azərbaycan gəncləri ictimai-siyasi, sosial-mədəni və digər sahələrdə fəal iştirak edirlər. Həyatın bütün sahələrində gənclərin fəallığı, təşəbbüskarlığı, irimiqyaslı layihələrin icrasında və idarəetmədə rolu artıb. Belə ki, ölkəmizdə keçirilən beynəlxalq tədbirlərdə gənclər fəallıq göstərərək, bacarıqlarını ortaya qoyurlar. Belə ki, I Avropa Oyunları, "Formula-1" Bakı Qran-Prisi, 2017-ci il IV İslam Həmrəyliyi Oyunları və digər beynəlxalq səviyyəli tədbirlərdə gənclərin fəallığı özünü göstərdi. Deməli, Azərbaycan gəncliyi fəaldır, təşəbbüskardır. Dövlətin bu gün ölkənin bütün sferalarında iştirakı məqsədi ilə yaradılan səmərəli vasitələrdən hər bir gənc yararlanır. Harada inkişaf, tərəqqi var, gənclərimiz də o istiqamətə doğru irəliləyir. Fərəhləndirici haldır ki, bu gün Azərbaycan gəncliyi milli dəyərlərimizə sahib çıxır. Dünya arenasında öz sözü ilə özünü və tarixini təsdiqləyir. Gənc idmançılarımızın qələbələrini, gənc siyasətçilərin uğurlarını və digər sahələri nümunə kimi göstərmək olar. Bir sıra müsabiqələrdə, yarışlarda Azərbaycan gənclərinin Avropa məkanını fəth etməsi, birincilik qazanaraq, Azərbaycan bayrağını dalğalandırması Azərbaycan gəncliyinin sağlam düşüncəsinin məntiqidir. Bu, Azərbaycan gənclərinə yaradılan şəraitdir. Bu reallıqların əsasında dayanan dövlətin gənclər siyasəti, onlara maddi və mənəvi cəhətdən göstərdiyi qayğıdır. Azərbaycanın durmadan inkişafı, dünya dövlətlərinə inteqrasiya prosesinin sürətlənməsi, iqtisadi yüksəliş kimi nailiyyətlər gəncliyin qarşısında perspektivlər açmaqla yanaşı, onları stimullaşdırır.

Müasir həyatımızda cəmiyyətdə yüksək intellektə malik olan, geniş dünyagörüşlü və innovasiyalara maraq göstərən gənclər nəsli formalaşıb. İstedadlı gənclər aşkar edilir, onların öz qabiliyyətlərini inkişaf etdirə bilmələri üçün respublikada mövcud şərait yaradılıb. Gənclərin sahibkarlıq fəaliyyətlərinin dəstəklənməsi, bazar iqtisadiyyatının əsaslarına dair biliklərə yiyələnməsi, peşə hazırlığının yüksəldilməsi məqsədi ilə, ardıcıl olaraq, tədbirlər həyata keçirilir. Heç şübhəsiz ki, gəncliyin mənəvi və fiziki sağlamlığı cəmiyyət üçün çox vacib olan məsələlərdəndir.

Həyata keçirilən dövlət proqramları, bir daha təsdiqləyir ki, dövlətimiz tərəfindən Azərbaycan gənclərinin vətənpərvərlik, vətəndaşlıq tərbiyəsinin gücləndirilməsi, onların innovativ düşüncə və rəqabətədavamlı biliklərə yiyələnməsi istiqamətində uğurlar əldə olunub.

**Nəzakət ƏLƏDDİNQIZI**

# "Rəsmi Paris vasitəçilik prinsiplərinə zidd addımlar atır"

*"Fransanın ATƏT-in Minsk Qrupunun həmsədrlərinin tərkibində qalıb-qalmaması məsələsi qaldırılmalıdır"*

**Fransanın bəzi bələdiyyə rəhbərlərinin işğal altında olan Azərbaycan ərazilərinə səfər etmələri Fransa-Azərbaycan əlaqələrinin və imzalanan sazişlərinin mahiyyətinə ziddir. Söhbət etdiyimiz müsahiblərimiz, ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində ədalətlə vasitəçilik edəcəyi barədə üzərinə öhdəliklər götürmüş Fransanın ikili yanaşma nümayiş etdirdiyini bildirdilər.**

Millət vəkili Azər Badamov: **"Fransa hakimiyyəti erməni lobbisinin təsiri altındadır "**



- Fransanın bir neçə bələdiyyəsinin üzvlərinin Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərinə səfərləri və şəhərlər arasında dostluq sazişləri imzalanması beynəlxalq hüquq normalarına tamamilə ziddir. Bu, onu deməyə imkan verir ki, Fransa hakimiyyəti erməni lobbisinin təsiri altındadır. Çünki dəfələrlə Fransa Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşdığını və münaqişənin sülh yolu ilə həll olunmasının tərəfdarı olduğunu bildirib. ATƏT-in Minsk Qrupunun üzvü olaraq, münaqişənin həll olunmasında vasitəçilik missiyasını həyata keçirir. O biri tərəfdən isə, Azərbaycanın işğala məruz qalmış ərazilərinə qanunsuz səfərlər edir və sazişlər imzalayır. Bundan nəticə çıxarmaq olar ki, Fransanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu həlli istiqamətində səsləndirdikləri fikirləri ilə əməlləri dabandabana ziddir. Ona görə də, Azərbaycan Fransaya öz narazılığını bildirməlidir. Yəni xarici işlər nazirliyi Fransa dövlətinə etiraz notasını göndərməli, ərazilərimizə qanunsuz səfərlər və hərəkətlər edənlər arzuolunmaz şəxslərin siyahısına salınmalı, Fransanın Azərbaycanda fəaliyyət göstərən şirkətlər ilə müqavilələrə yenidən baxılmalı, Avropa Şurasında məsələ qaldırmalı və Fransanın ATƏT-in Minsk Qrupunun həmsədrlərinin tərkibində qalıb-qalmaması məsələsi qaldırılmalıdır. Çünki bir dövlət öz qurumlarının və vətəndaşlarının hərəkətlərinə nəzarət edə bilmirsə, o dövlət heç vaxt münaqişənin sülh yolu ilə həll olunmasına öz töhfəsini verə bilməz.

Atatürk Mərkəzinin şöbə müdiri Əkbər Qoşalı: **"Rəsmi Parisin izahat verməsi və özlərinin mənəvi və hüquqi öhdəliklərini dilə gətirmələri vacibdir"**



- Əlbəttə, Fransanın bəzi bələdiyyə rəhbərlərinin işğal altında olan Azərbaycan ərazilərinə səfər etmələri beynəlxalq hüquq normalarına və prinsiplərinə ziddir. Bununla Fransa dünyada birgə yaşayışa və sülhə zidd olan addımlar atmış oldu. Belə çıxır ki, sabah Fransanın hər hansı bir ərazisi özünü müstəqil ölkə elan etsə və dünyanın ayrı-ayrı ölkələrindən, o cümlədən, Azərbaycandan ora insanlar gedib-gəlsə, Fransa bunu qəbul etməlidir. Fransızlar məsələyə bu nöqtədən baxsınlar. Əlbəttə, biz başa düşürük ki, Fransa böyük və qədim dövlətdir. Ancaq hamı tərəfindən qəbul edilmiş ümumi birgəyaşayış qaydaları, beynəlxalq hüquq normaları dövlətin böyüklüyünə-kiçikliyinə, xalqın sayının azlığına-çoxluğuna, yaxınlığına-uzaqlığına, daşıdığı dini mənsubiyyətə və danışdığı dilə baxmır. Bu insanların birgəyaşayış normasıdır və elə bir normadır ki, hər hansı bir dövlət bu günkü gücündən, mövqeyindən, istifadə edib, o qaydaları pozursa, sabah zəncirvarı halqa ilə bu proseslər onun özünə qarşı çevrilə bilər və o zaman bunun mənfi nəticələri çox ağır olar. Yəqin ki, artıq Fransa Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi vasitəsi ilə Azərbaycan dövlətinin mövqeyi ilə tanışdır. Hesab edirəm ki, rəsmi Parisin izahat verməsi və belə hərəkətlərin bir də daha təkrar olunmaması barədə özlərinin mənəvi və hüquqi öhdəliklərini dilə gətirmələri vacibdir.

**GÜLYANƏ**



# Leysan Soçidə həyatı iflic etdi

Oktyabrın 24-dən 25-ə keçən gecə və səhər Rusiyanın kurort şəhəri Soçidə təbii fəlakət baş verib. SİA-nın Rusiya mətbuatına istinadən verdiyi məlumata görə, güclü və aramsız yağan leysan nəticəsində şəhər sözün əsl mənasında sulara qərq olub. Şəhərin bütün ərazisində fövqəladə vəziyyət elan edilib. Kommunikasiya sistemləri yararsız hala düşüb, dövlət idarələri, xəstəxana və məktəblər fəlakət səbəbindən iş qabiliyyətində deyil.

# "Bu səfərlər Fransanın özünün nüfuzunu dünyada zədələyir"



"Ötən ay ərzində Fransanın bir neçə bələdiyyə başçıları tərəfindən (25 sentyabr - Alforvil, 10 oktyabr - Valans, 21 oktyabr - Sent-Etyen, 22 oktyabr - Arnuvil) Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfərlərin həyata keçirilməsi beynəlxalq hüququn norma və prinsiplərinin, eləcə də Azərbaycanın qanunlarının kobud şəkildə pozulması halıdır və Ermənistanın gücdən istifadə etməklə işğal etdiyi Azərbaycan ərazilərində yaratdığı qondarma separatçı rejimin təşviqinə xidmət edir". Bunu SİA-ya açıqlamasında "Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev deyib.

Onun sözlərinə görə, xüsusilə də fransız diplomatik dövlət və ictimai-siyasi dairələrin təmsilçilərinin Qarabağ separatizminə qanunsuz verdikləri dəstəyə Azərbaycanın reaksiyası həm dövlət səviyyəsində, həm də ictimai səviyyədə demək olar ki, yetərlidir və öz müsbət rolunu oynayır: "Çox təəssüf ki, Fransanın məlum dairələrinin təmsilçiləri Qarabağın separatçı hərəkatına ən müxtəlif dolayı və birbaşa dəstəklərini davam etdirirlər. Əslində Fransanın həm bəzi diplomatlarının, həm yerliözünüidarə orqanları rəhbərlərinin, həm də Fransa senatının bəzi nümayəndələrinin bu istiqamətdə atdıqları addımlar eyni dərəcədə ziyanlıdır. Bir tərəfdən onların bu hərəkəti Fransanın özünün nüfuzunu dünyada zədələyir, digər tərəfdən Fransanın Azərbaycanla münasibətlərini korlayır, Azərbaycanda Fransanın bir dövlət olaraq nüfuzuna ləkə salır, eyni zamanda ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrindən biri kimi birtərəf vasitəçi olmağına rəğmən Fransanın bu missiyasına da ləkə salır."

# "Müxalifətin xaricdən 3 milyon dollar alması yeni xəbər deyil"

***"Umid" partiyasının sədri İqbal Ağazadənin mətbuata verdiyi açıqlamasında Müsavat başqanı Arif Hacılının və keçmiş başqan İsa Qəmbərin xaricdən 3 milyon dollar alması barədə məlumat müxalif düşərgədə ciddi qarşıdurmaların gərginləşməsinə yol açıb. Söz yox ki, Arif Hacılı və İsa Qəmbər böyük məbləğdə vəsaiti almaqla "Siyasi partiyalar haqqında qanun"un tələblərini pozmuş olurlar. Söhbət etdiyimiz müsahiblərimiz bu cür faktlara istinadən, bildirdilər ki, müxalif partiyalar siyasətdən öz maddi vəziyyətlərini yaxşılaşdırmaq üçün istifadə edirlər?***

## Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, SİM İB-nin sədri Anar Xəlilov: "Söz hüquq-mühafizə orqanlarınındır"



- Dağıdıcı müxalif partiya sədrlərinin xaricdən 3 milyon dollar almaları yeni xəbər deyil. Onlar fəaliyyətləri dövründə xaricdən zaman-zaman daha çox maliyyə vəsaiti alıblar. Bu maliyyə vəsaitləri müxtəlif adlarla bu insanlara xaricdən anti-Azərbaycan qüvvələr tərəfindən ötürülüb. Bu işdə bunların ətrafında fəaliyyət göstərən siyasiləşmiş QHT-lər də böyük rol oynayır. Müxalifət xaricdən maliyyələşmə prosesində QHT-lərdən istifadə etməklə, məsuliyyətdən kənarda qalmağa çalışır. Lakin maliyyə vəsaiti alındıqdan sonra pul bölgüsü zamanı onların arasında ciddi konfliktlər yaranır. Təbii ki, buna görə bu insanların fəaliyyəti araşdırılmalıdır. Burada söz hüquq-mühafizə orqanlarınındır. Hesab edirəm ki, hüquqi müstəvidə araşdırma aparılması ilə bir sıra qaranlıq məsələlərə də aydınlıq gəlmiş olar. Qanun siyasi partiyaların xaricdən maliyyələşməsini qadağan edir. Əgər bu fakt varsa, həmin təşkilatlar məsuliyyətə cəlb edilməlidirlər.

## QHT.az saytının rəhbəri, "İnformasiya Təşəbbüslərinə Dəstək" İctimai Birliyinin sədri Cəsarət Hüseynzadə: "Müxalifətin başqa bir gəlir mənbəyi siyasi mühacirlər üçün verilən arayışlardır"



- Müxalifət partiyalarının xaricdən maliyyələşməsi, mütəmadi olaraq, gündəmə gəlib. Cəmiyyət müşahidə edir ki, müxalifət liderlərinin yüksək səviyyəli müxtəlif xərcləri mövcuddur. Rəsmi olaraq da, heç bir yerdən əmək haqqı almırlar. Əslində, bəlli məqamlar var ki, cəmiyyətin müxtəlif təbəqələri üçün bunlar şübhələr yaradır. Əlbəttə, siyasi partiyaların da maliyyə resursları olmalıdır. Bu, siyasi partiyalar haqqında qanunda öz əksini tapıb. Bir qədər də məsələyə detallı yanaşsaq, qeyd edə bilərik ki, əgər siyasi partiyanın arxasında vətəndaşlar dayanıbsa, partiyalar ianələr hesabına, parlament seçkiləri və digər qanuni yollarla öz maliyyə məsələlərini həll edə bilirlər. Lakin adları sadalanan müxalifət partiyalarının üzvlərini, partiya sədrinin qohum-əqrəbaları təşkil edir. Həmin şəxslər də partiyaya ianə vermir, əksinə, partiyada təmsil olunmaq müqabilində, pul alırlar. Bəs müxalifət partiyaları hansı yollarla vəsait əldə edirlər? İlk növbədə, onu qeyd etmək lazımdır ki, bu vəsaitlər qeyri-şəffaf vəsaitlərdir və qeyri-qanuni yollarla əldə edilir. Müşahidələr onu göstərir ki, bu yollardan ən əsası, məhz seçkilər ərəfəsində xarici mənbələrdən müxtəlif yollara əldə edilən vəsaitlərdir. Məhz Müsavat başqanı Arif Hacılının və keçmiş başqanı İsa Qəmbərin xaricdən 3 milyon dollar alması barədə mətbuatda yayılan informasiya bu faktı təsdiqləyir. Bu vəsaitlər ilə qruplaşma və tərəfdaşlar formalaşdırılır və s. Müxalifətin başqa bir gəlir mənbəyi siyasi mühacirlər üçün verilən arayışlardır. Vaxtaşırı bu maliyyələşmə metodundan AXCP və Müsavat partiyaları istifadə edir və etməkdə də davam edirlər. Bir neçə gün öncə, İqbal Ağazadənin məlum debatda səsləndirdiyi fikirlər, əslində, müxalifətdaxili vəziyyəti ortaya qoyur. Bu fakt, əslində, bu tip həyata keçirilən əməliyyatlardan biridir. Yaxud Cəmil Həsənlinin bir "siyasi mühacir" haqqında "İctimai əsaslarla bu qədər işi görmək mümkün deyil deməsi", bir daha xaricdən bu insanlara dəstək olunması faktını təsdiq edir. Müxalifətin xaricdən maliyyələşməsi hər kəsə bəllidir. Bu artıq müxalifətçilərin öz dillərindən də eşidilməkdədir.

## "Azadlıq Hərəkatçıları" İctimai Birliyinin sədri Təhmasib Novruzov: "Müxalifət öz siyasətini və mənliyini xarici havadarlarına satıb "



- Təbii ki, Arif Hacılının və keçmiş başqan İsa Qəmbərin xaricdən 3 milyon dollar alması siyasi partiyalar haqqında qanunun tələblərinin pozulması deməkdir. Müsavat İsa Qəmbərin rəhbərliyi altında 15 ildən çoxdur ki, xarici havadarların hesabına yaşayır. Bir partiyanın fəaliyyət göstərməsi, saxlanması və yaşaması üçün hər ay 100 minlərlə maliyyə vəsaiti lazımdır. Burada sual olunur: bəs bu pul haradan alınır? 3 milyon dollar nə puldur ki? Yəni burada söhbət 30-50 milyonlardan gedir. İ.Qəmbərin xaricdən bu və bundan da artıq maliyyə vəsaitlərini aldığı heç kəsdə şübhə doğurmamalıdır. Bir sözlə, adları çəkilən şəxslər xarici qüvvələrdən maliyyə vəsaitləri alırlar və qarşılığında, onların pozucu sifarişlərini yerinə yetirirlər. Yəni müxalifət öz siyasətini və mənliyini xarici havadarlarına satıb.

Bir var, gerçək siyasətçi olasan, hansısa bir amal uğrunda mübarizə aparasan və öz amalını xalqa xidmət edəcəyinə, xalqın xeyrinə olduğuna əmin olub, buna nail olmaq uğrunda mübarizə aparasan. Bir də var, sən müxalifət fonu yaradıb, haradansa, kimlərdənsə maliyyə vəsaiti əldə edəsən. Buna siyasi biznes deyilir. Yəni bu, nə siyasət deyil, nə də biznes deyil. Bir sözlə, onların fəaliyyətləri və işləri yalnız özlərini xarici qüvvələrə reklam edərək, qarşılığında, pul qazanmaqdır.

**GÜLYANƏ**

## Politoloq: "Bu gün Ermənistanda oyun oynayırlar"

"Bu gün Ermənistanda oyun oynayırlar. Təbii ki, bu oyunu da Paşinyanın təkidi ilə aparırlar". Bunu SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib. Onun sözlərinə görə, Ermənistan konstitusiyasına əsasən seçkilər müddətində baş nazir istefa verməlidir: "Onun yerinə isə yenisi seçilməlidir. Amma Paşinyan həmişə hər şeyə hökm etdiyinə görə, yenisinin seçilməsinə icazə vermir və bununla bağlı parlamentdəki bütün fraksiyalarla danışıqlar aparıb. Onlar da Paşinyanın adamlarının qorxusundan Paşinyan nə edirsə onu edirlər. Yəni birinci turda baş nazir seçilmədi. Əgər ikinci turda parlament baş naziri seçməzsə özünü buraxılmış elan edəcək və yeni seçkilərin vaxtının elan edilməsini göstərəcək. Bu bir növ öz-özünə intihar etməyə bənzəyir".

# Paşinyanın planları reallaşmır

## *Parlament çoxluğu onun hakimiyyətə gəlişini əngəlləyir*



***İşğalçı Ermənistanda hakimiyyət uğrunda başlanan mübarizə fonunda bu ölkənin yeni xaosa yuvarlanması müşahidə olunmaqdadır. Düzdür, ilk baxışda görünən budur ki, hərbi xunta rejimini çevriliş yolu ilə dəyişərək, hakimiyyətə gələn Nikol Paşinyan dekabrda baş tutacaq növbədənkənar parlament seçkiləri yolu ilə iqtidarı tam şəkildə əlinə ala bilər. Amma erməni mediasının yazdıqlarından belə məlum olur ki, baş nazir vəzifəsinə öz namizədlərini irəli sürməyəcəklərini bildirən "Qarabağ klanı" və digər siyasi qüvvələr Paşinyan üçün sürpriz hazırlayırlar.***

Nikol Paşinyan isə, oktyabrın 16-da istefa verməsinə baxmayaraq, hələlik, baş nazirlik səlahiyyətlərini icra edir. Çoxları bunu Paşinyanın çıxılmaz durumda olması, vədlərinin heç birini yerinə yetirə bilməməsi kimi dəyərləndirir. Lakin konstitusiyanın tələblərinə görə, Ermənistan Milli Məclisi iki dəfə ardıcıl baş nazir seçə bilməsə, o halda, parlament istefaya gedir və növbədənkənar seçkilər təyin olunur. Nikol Paşinyan istefa verdikdən sonra parlamentdəki digər fraksiyaların baş nazir postuna namizəd irəli sürməyəcəyinə dair razılaşma əldə etdiyini bəyan edib.

## "Hakimiyyəti ələ keçirmək üçün ordunun gücündən də istifadə edəcəyəm"

Ermənistan parlamentində baş verənlər artıq Paşinyanın planlarını alt-üst edir. Belə ki, son günlər on 10-11 nəfər deputatın istefa verərək, N.Paşinyanın tərəfinə keçməsi "Respublika" fraksiyasının parlamentdəki üstün mövqeyini xeyli zəifləməsinə və Serj Sarkisyanı dəstəkləyən deputatların sayının 38 nəfərə düşməsinə baxmayaraq, yenə də Nikolun narahatlığı onun hakimiyyəti üçün təhlükə ocaqlarının hələ sönmədiyindən xəbər verir.

Çünki sıralarının seyrəlməsinə baxmayaraq, "Respublika" fraksiyası Milli Məclisdə mandatların sayına görə, hələ də üstünlük təşkil edir və "Daşnaksytyun" fraksiyasını təmsil edən 7 deputat da onları dəstəkləyir. İkincisi, ERP baş nazir postuna namizəd irəli sürməyəcəyini bəyan etsə də, bununla bağlı N.Paşinyanla və ya onun rəhbərlik etdiyi "Yelk" ("Çıxış") fraksiyası ilə hər hansı siyasi saziş imzalamayıb. Ona görə də, ERP-nin hökumət başçısı postuna namizəd irəli sürməyəcəyinə zəmanət yoxdur. Bu isə, Ermənistanda "məxməri inqilab"dan sonra daha böyük siyasi qarşıdurmaya gətirib çıxara bilər. Beləliklə, belə bir vəziyyət yaranarsa, N.Paşinyan bunu dövlət çevrilişi kimi qiymətləndirəcək və müxalifətin hakimiyyəti ələ keçirməsinə mane olmaq üçün bütün inzibati resurslardan, hətta ordudan istifadə etməyə çalışacağını bildirib. Hətta N.Paşinyan hakimiyyəti devirməyə çalışan hər hansı siyasi qüvvəyə qarşı yenidən növbəti "məxməri inqilab" edəcəyinə dair mesaj da verib.

## Ekspertlər: "Paşinyanı hakimiyyətə gətirənlər özləri də onu birdəfəlik siyasət meydanından silə bilərlər"

Əksər yerli və xarici ekspertlər isə, belə hesab edirlər ki, bu qayıdış heç də Paşinyanın hesabladığı kimi olmaya bilər. Onu elə hakimiyyətə gətirənlər özləri birdəfəlik hakimiyyət və siyasət meydanından silə bilərlər. Artıq Haqik Tsarukyanın rəhbərlik etdiyi "Çiçəklənən Ermənistan" partiyası, eləcə də, "Daşnaksutyun" Paşinyana qarşıdır. Erməni şərhçi Qarnik Qevorkyan yazır ki, onlar Paşinyana qarşı Moskvadan da dəstək alırlar: "Maraqlıdır ki, Tsarukyanın Moskvaya qəfil səfərləri son dövrlərdə xeyli intensivləşib. Ümumiyyətlə, Ermənistandakı inqilab təkcə Serj Sarkisyanı hakimiyyətdən məhrum etmədi, həm də Rusiyanın təsirini azaltdı. O üzdən indi növbədənkənar parlament seçkilərinə təkcə erməni siyasi qüvvələr yox, həm də Moskva hazırlanır. Yaxın vaxtlarda Ermənistandakı rusiyayönümlü qüvvələrlə əməkdaşlıq güclənəcək. Bu baxımdan, Tsarukyanın tez-tez Moskvaya getməsi təsadüfi deyil. Onun Rusiya rəhbərliyi, eləcə də, Belarus prezidenti Aleksandr Lukaşenko ilə yaxşı münasibətləri var. Həmçinin, o, Robert Koçaryan kimi, hakimiyyətin dayaqlarından biridir. Yəni Tsarukyan Ermənistanda Rusiyanın dayaqlarından biri hesab olunur". Qarnik Qevorkyan Tsarukyan onu da vurğulayır ki, Rusiya seçkilərə qədər mövcud Paşinyan hakimiyyəti ilə işləyəcək, seçkilərdə isə öz qüvvələrinə dəstək verəcək: "Paşinyanı devirmək üçün yaxın günlərdə Ermənistandakı rus qüvvələri hərəkətə keçəcək".

"İrs" Partiyasının sədri Armen Martirosyan bildirir ki, vəziyyət iki ay ərzində, hər an dəyişə, hətta qanlı qarşıdurmaya keçə bilər.

Beləliklə, bütün bu baş verənlər, onu deməyə əsas verir ki, parlament çoxluğu Paşinyanın hakimiyyətə gəlişini əngəlləyə bilər.

**A.SƏMƏDOVA**

# Siyasiləşmiş QHT-lərin qaranlıq tərəfləri üzə çıxır

*Qərbin muzdlu nökərləri olan AXCP-Müsavatın qrant savaşı səngimir*

***Ölkəmizdə çoxsaylı QHT-lər, vətəndaş cəmiyyəti institutları timsalında təşkilat ictimai birliklər fəaliyyət göstərməkdədir. Təəssüflər olsun ki, bir çox qeyri-normal, inkişaf prinsiplərindən kənar QHT-lər də mövcuddur ki, həmin QHT-lər onların rəhbərləri bilavasitə öz maraqlarına xidmət göstərirlər. Əsas gəlir mənbələri xarici donorların ayırdığı qrantlardır.***

Bəzi təşkilatlar göndərdikləri məlumatlarla Azərbaycanın üzvü olduğu beynəlxalq təşkilatlarda ölkəmizə qarşı qərəzli kampaniyalar təşkil etməklə məşğuldurlar. Bu şəbəkənin əsas fəaliyyət istiqamətlərindən biri də Azərbaycan dövləti, hakimiyyətin siyasəti haqqında müsbət mövqedə olan və müsbət fikirlər səsləndirən ictimaiyyət nümayəndələrini, ziyalıları, habelə, Azərbaycana dost münasibəti olan xarici təşkilatları, ekspertləri gözdən salmaq və onlara qarşı inamsızlıq mühiti yaratmaqdır.

QHT

## AXCP-Müsavat Qərbin muzdlu nökərləridir

Aparılan araşdırmalara diqqət yetirirlər, siyasiləşmiş QHT-lərin Qərbdən qrant alan dağıdıcı müxalifət onların muzdlu nökərlərinə çevrilirlər. Məhz bu səbəbdən də, bir zamanlar qrant maxinasiyası siyasiləşmiş QHT-lərlə bir yerdə olan AXCP və Müsavatı muzdlu nökərlərə çevirərək. bir-birlərinə qarşı müəyyən ittihamlarla çıxış etməyə sövq edirlər. Çünki xaricdə olan havadarları bunlara siyasiləşmiş QHT-lər vasitəsi ilə pullar ötürürlər ki, ölkəmizdə xoşagəlməz bir vəziyyət yaratsınlar. Məsələn, uzun illərdir ölkəmizdə fəaliyyət göstərən Milli Demokratiya İnstitutunun məqsədi guya müxalifətin fəaliyyətini “dünya standartları”na uyğunlaşdırmaq, yəni onlara “demokratiya” dərsi keçməkdir. Ancaq nədənsə, adıçəkilən ABŞ təşkilatları, həmçinin, digər Qərb qurumları neytral mövqeyi ilə seçilən QHT-lərlə əməkdaşlığa can atmırlar. Azərbaycanda kifayət qədər vətəndaş cəmiyyəti institutları, ictimai birliklər səmərəli iş aparmaqda və layihələr gerçəkləşdirməkdədirlər. Qeyd edək ki, onların maliyyə hesabatları siyasiləşmiş qurumlardan fərqli olaraq şəffaf və demokratikdir.

## Aydın Mirzəzadə: “Özünü siyasətə qoşan QHT-nin fəaliyyətində, ilk növbədə, antihökumət və antimilli hərəkatı görürük”

Millət vəkili Aydın Mirzəzadə sözügedən məsələ ilə bağlı bildirib ki, Qərbdəki bəzi dairələr Azərbaycanda məqsədyönlü surətdə “beşinci kolon” yaratmağa çalışırlar: “Bunu bir vaxtlar siyasi təşkilatlar xəttilə etmək istədilər. Azərbaycan cəmiyyəti buna sərt reaksiya verdiyindən, istəklərini yarımçıq saxladılar. Vaxtaşırı ayrı-ayrı insanları öz maraqlarına uyğun fəaliyyət aparmağa yönəldirlər. Bu formalardan biri də qeyri-hökumət təşkilatlarıdır. Göründüyü kimi, bu qurumlar siyasətlə məşğul olmayan, müəyyən sosial proqramları həyata keçirən vətəndaşlar tərəfindən yaradılan təşkilatlardır. Amma onlar arasında siyasiləşməyə meyil edən, QHT hərəkatına varlanmaq vasitəsi kimi baxanlar da tapılır. Bu proses də onlara ayrılan vəsait əvəzinə, müəyyən addımların atılması tələbilə müşayiət olunur. Heç də təsadüfi deyil ki, özünü siyasətə qoşan QHT-lərin fəaliyyətində, ilk növbədə, anti-hökumət, anti-milli hərəkatı görürük. Azərbaycanın ümummilli maraqlarını beynəlxalq aləmdə müdafiə edən və xaric tərəfindən maliyyələşən QHT-lər yoxdur. Xaricdəki müəyyən dairələri, məhz hökumət və dövlət əleyhinə aparılan fəaliyyət maraqlandırır və belə fəaliyyəti həyata keçirənlərə böyük məbləğlərin ayrıldığı da cəmiyyətimiz üçün artıq sirr deyil”.

## Fərasət Qurbanov: “QHT-lərin fəaliyyəti cəmiyyətin mənafeyinə xidmət edən humanitar fəaliyyət növüdür”

Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının icraçı direktoru Fərasət Qurbanov bəzi QHT-lərin dağıdıcı müxalifət partiyaları ilə sıx əməkdaşlıqlarına toxunaraq, bildirib ki, QHT-lər öz enerjili resurslarını cəmiyyətin ayrı-ayrı təbəqələrinin problemlərinin və yaxud digər məsələlərin həllinə yönəldən və insanlığa xidmət edən humanitar fəaliyyətdir.

F.Qurbanov bildirib ki, siyasiləşmiş QHT-lərin əsas ideoloqlarından olan Leyla Yunus və onun kimi adamların fəaliyyəti artıq cəmiyyətimizə bəllidir və onların nümayiş etdirdikləri siyasi xətlərində açıq görünür ki, bunlar ölkəmizə qənim kəsilmiş şəxslərdir: “Adları çəkilən bu şəxslər Azərbaycan dövlətinin əldə etdiyi uğurlarına paxıllıq hissi ilə yanaşaraq, bu uğurlara nə isə bir kölgə salmağa çalışırlar. Ancaq onların özlərinə tərəfdaş, xarici maraqlı fondlardan dəstək toplamaları üçün etdikləri canfəşanlıqların heç biri öz bəhrəsini verməyəcəkdir. Çünki inanmıram ki, hansısa QHT L.Yunus kimi pozucu bir şəxsin fitvasına uysun. L.Yunus kimi şəxslərin fəaliyyətləri tamamilə qanuna ziddir. Onun fəaliyyəti, bütövlükdə, milli maraqlarımıza zidd olan bir hərəkətdir”.

Beləliklə, həmin siyasiləşmiş QHT-lər unudurlar ki, Azərbaycan hüquqi dövlətdir və hər kəs hüquqi fəaliyyəti və əldə etdiyi gəlirlərin mənbəyinə aydınlıq gətirməlidir. Bu baxımdan, ölkəmiz əleyhinə olan QHT-lər gec-tez ifşa olunur və bu yolun sonu yoxdur.

***Rəfiqə HÜSEYNOVA***

# Azərbaycanın daha 12 bölgəsinin sakinlərinə “Bakcell”dən PULSUZ 4G İnternet

## Ölkənin ən iri və sürətli mobil şəbəkəsindən tamamilə pulsuz istifadə etmək üçün unikal fürsət

***Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti ölkənin daha 12 bölgəsinin sakinlərinə 5 Giqabayt həcmində PULSUZ 4G interneti əldə etmək və telekommunikasiya bazarında ən müasir texnologiya və ən yüksək müştəri təcrübəsi ilə tanış olmaq fürsəti qazandırır.***

SİA xəbər verir ki, Bakcell əhatə dairəsi və şəbəkə həcmi baxımından ölkənin ən böyük 4G (LTE) şəbəkəsinə malikdir. Şirkətin 1500-dən çox LTE baza stansiyası ilə saniyədə 225 meqabitə qədər sürəti dəstəkləyən 4G şəbəkəsi gündəngünə genişlənir və artıq bütün Bakı və Abşeron ərazisi daxil olmaqla ölkənin 40-dan çox rayon və şəhər mərkəzini əhatə edir. Özünün 4G şəbəkəsinin əhatə dairəsini Azərbaycanın bölgələri üzrə sürətlə genişləndirən Bakcell həmin bölgələrdə yaşayan abunəçilər üçün təşkil edilmiş xüsusi kampaniya çərçivəsində 4G şəbəkəsində istifadə etmək üçün 5 Giqabayt PULSUZ İnternet hədiyyə edir. Bu dəfə Kürdəmir, Ağdaş, İmişli, Masallı, Şəmkir, Mingəçevir, Hacıqabul, Lerik, Tovuz, Ağcabədi, Daşkəsən və Göyçayda yaşayan abunəçilər pulsuz internet trafiki əldə edib ölkənin ən sürətli və etibarlı mobil şəbəkəni sınaqdan keçirməyə imkan qazanıblar. Qeyd edək ki, bundan əvvəl həmin kampaniya Azərbaycanın digər 20 bölgəsində həyata keçirilib.




4G texnologiyası mobil cihaz vasitəsilə həyata keçirilən yükləmə, video zəng, mobil televiziya və ya sosial şəbəkələrdən istifadə kimi əməliyyatların sürətini əhəmiyyətli dərəcədə yüksəltmək üçün yaradılmış dördüncü nəsil simsiz məlumatötürmə şəbəkəsidir. 4G əsasən daha sürətli, rahat və sabit texnologiya deməkdir. Bakcell şirkətinin qurduğu ən müasir 4G şəbəkəsi abunəçilərə öz smatrfonlarının ən maraqlı funksiyalarından tam şəkildə yararlanmaq imkanı verir. Bu isə o deməkdir ki, sözügedən texnologiya sayəsində Bakcell abunəçiləri yüksək həllolma əmsalı ilə 4K kontentini izləmək və yükləmək, əyləncə proqramlarına ani giriş əldə etmək, HD keyfiyyətində onlayn video izləmək, canlı konsert və idman proqramlarına baxmaq və mürəkkəb yeni nəsil mobil tətbiqetmələrindən istifadə etmək imkanına malikdirlər.

Yuxarıda qeyd olunan bölgələrin sakinləri 23 oktyabr - 8 yanvar tarixləri arasında keçiriləcək bu kampaniyada iştirak etmək üçün sadəcə telefonda *304#YES kodunu yığmalı və cihazın ayarlarında 4G/LTE şəbəkəsini seçməlidirlər.

Kampaniya zamanı təqdim olunan PULSUZ internet trafikindən istifadə etmək fürsəti hər abunəçiyə yalnız bir dəfə verilir. Kampaniyadan yararlana bilmək üçün abunəçinin mobil cihazı 4G şəbəkəsini dəstəkləməli və 4G SİM-kartla təmin olunmalıdır. Qeyd edək ki, yuxarıda qeyd olunan bölgələrdə yaşayan Bakcell abunəçiləri yaşadıqları əraziyə yaxın olan Bakcell Müştəri Xidməti Mərkəzinə və ya “Bakcell”in diler dükanına yaxınlaşıb öz köhnə SİM kartını yeni 4G SİM-kartı ilə PULSUZ dəyişə bilərlər. Həmin bölgələrdə yerləşən diler dükanlarının ünvanları aşağıdakı linkdədir: https://www.bakcell.com/az/-free_5_gb_internet_on_4g_network

5GB həcmində PULSUZ internet yalnız “Bakcell”in 4G şəbəkəsində 30 gün ərzində istifadə oluna bilər. Həmçinin, hədiyyə 5GB paketi yalnız yuxarıda qeyd olunan rayon və şəhərlərin ərazisində istifadə oluna bilər.

Qeyd edək ki, Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti müasir mobil kommunikasiya xidmətləri istifadəçilərinə geniş çeşiddə məhsullar təklif edir. Şirkət öz abunəçilərinə ən mükəmməl 4G/LTE mobil internet xidməti göstərir.

7000-dən artıq baza stansiyası vasitəsilə Bakcell şəbəkəsi əhalinin 99%-ni, ölkə ərazisinin isə 93%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir. Mobil rabitə şəbəkələrinin müqayisəli testləri (bençmarkinq) sahəsində beynəlxalq lider və ən etibarlı müstəqil təşkilat olan “P3 Communications” şirkəti tərəfindən Bakcell şirkəti Azərbaycanda sınaq nəticələrinə görə, ən yaxşı şəbəkə adına layiq görülüb (“Best in Test”). 2018-ci ildə şirkət “Azərbaycanın ən sürətli mobil şəbəkəsi” adına layiq görülüb. Bu mükafat bütün dünyada tanınmış “Ookla” şirkəti tərəfindən “Bakcell”ə Azərbaycan Respublikası ərazisində ən sürətli mobil internet xidmətlərinin göstərilməsinə görə təqdim edilib

Bakcell və onun məhsul və xidmətləri haqqında ətraflı məlumat əldə etmək üçün, xahiş edirik, www.bakcell.com internet səhifəsinə daxil olun və ya 555-ə zəng edin. Press-relizlərlə tanış olmaq üçün www.bakcell.com/az/news (və ya İngilis dili üçün www.bakcell.com/en/news) səhifəsinə daxil olun.

Qeyri-Bakcell abunəçiləri isə 012 498 89 89 nömrəsinə zəng etməklə “Bakcell”in məhsul və xidmətləri haqqında məlumat əldə edə bilərlər.

SİYASİ RAKURS

# İsa Qəmbərlə digər radikalları Gürcüstana niyə dəvət ediblər?

*Yaxud "Gürcü arzusu" Saakaşvilinin Bakıya gəlməsi ehtimalını düşünməlidir*

**Bəlli olduğu kimi, Bakıdan olan bir qrup dağıdıcı xislətli müxalifətçinin Gürcüstanın paytaxtı Tbilisidə 1-3 noyabr tarixlərində Konrad Adenauer Fondunun təşkilatçılığı ilə keçirilən konfransa qatılacağı gözlənilir. Konfrans Gürcüstanın və Ukraynanın problemləri və onların həlli mövzusunu daşıyacaq.**



Məsələ yalnız bunda deyil. Müxtəlif informasiya mənbələrindən sızan məlumatlardan aydın olub ki, həmin konfransa Azərbaycanın ənənəvi müxalifətini, yəni dağıdıcı cinahını təmsil edən şəxslər də dəvət olunublar. Daha dəqiq desək, Gürcüstanda hakim koalisiya olan "Gürcü arzusu" bundan öncə də, radikal müxalifət üçün bu ölkəyə yer ayırıb, Azərbaycana qarşı gizli, ya da açıq şəkildə fəaliyyət göstərmələrinə şərait yaradıb.

## Radikallar qrantlarını Gürcüstan vasitəsi ilə əldə edirlər

Buna misal olaraq, Əfqan Muxtarlının xarici dairələrlə iş birliyi və anti-Azərbaycan fəaliyyətini, AXCP sədrinin müavini Gözəl Bayramlının onunla, məhz Gürcüstan vasitəsilə dağıdıcı müxalifətə göndərilən maddi vəsaitləri əldə etməsi, ardınca Azərbaycana qeyri-qanuni yollarla keçirmək cəhdlərini, Xədicə İsmayılın da, məhz bu ölkədə müxtəlif ermənipərəst xarici qurum rəhbərləri ilə görüşlər keçirməsini, "Milli Şura"nın sədri Cəmil Həsənlinin də bənzər tədbirlərə qatılaraq, ölkəmiz əleyhinə şər və böhtan kampaniyasında iştirakını, eləcə də, digər çoxsaylı faktları göstərə bilərik.

Bu dəfə isə, Müsavat partiyasının sabiq başqanı, "MSDM" sədri İsa Qəmbər həmin konfransa dəvət edilib. Əgər nəzərə alsaq ki, bu şəxs hər zaman Azərbaycanın dövlət maraqlarına qarşı çıxış edir, zaman-zaman xarici təşkilatlarla əlaqə saxlayaraq, müxtəlif anti-Azərbaycan xarakterli sifarişlərin reallaşmasında canfəşanlıq edir. Deməli ki, onun da konfransa dəvəti arxasında qaranlıq məqamların dayanması kimsədə şübhə doğurmur. Onun və digər radikalların həmin konfransdakı iştirakı əsnasında növbəti dəfə ölkəmiz və dövlətimiz əleyhinə fikirlər səsləndirməyəcəklərinə kimsə zəmanət verə bilməz. Daha doğrusu, onlara da elə bu lazımdır ki, qonşu Gürcüstana gedib, xarici ağaları qarşısında siyasi oyunbazlıqlar sərgiləsinlər, Azərbaycana geri dönərkən isə, sifarişli qrant layihələrini bank qəbzləri ilə birgə qatlayıb ciblərinə qoysunlar. Məhz bu baxımdan, istər İ.Qəmbərin, istərsə də digər radikal təmayüllü müxalifətçilərin Gürcüstana səfərləri, çox yəqin ki, Azərbaycan əleyhinə yönəldiləcək növbəti sifarişləri qəbul etmələrinə hesablanıb.

## Anti-Azərbaycan qüvvələrin tez-tez Gürcüstanda müxtəlif konfranslar, forumlar, treninqlər və digər məsələlər ətrafında bir yerə yığılmaları istər-istəməz hiddət hissləri doğurmaqdadır

Ortada digər bir vacib nüans da var. Belə ki, qeyd edilənlərlə yanaşı, o da bəllidir ki, hazırkı vaxtda da Gürcüstanda dövlətimizin maraqlarına qarşı çıxış edən insanlar da kifayət qədərdir. Elə də uzağa getməyərək, Günel Mövludu və onun kimi digərlərini göstərə bilərik. Bütün bunlar isə, Azərbaycanın dost Gürcüstana hər zaman həyan olması, kritik anlarında iqtisadi və s. cəhətlərdən dəstək göstərməsi fonunda baş verir ki, bu amillər istər-istəməz təəssüf hissləri doğurur. Ancaq bütün bunlara baxmayaraq, anti-Azərbaycan qüvvələrin tez-tez Gürcüstanda müxtəlif konfranslar, forumlar, treninqlər və digər məsələlər ətrafında bir yerə yığılmaları istər-istəməz hiddət hissləri doğurmaqdadır.

Yeri gəlmişkən, son vaxtlar Gürcüstanda mövcud iqtidara - "Gürcü arzusu" koalisiyasına etimad kəskin şəkildə aşağı düşməkdədir. Bunun yerinə isə, eks-prezident Mixail Saakaşvilinin reytinqi yüksəlməkdə davam edir. Görünür, bunu ciddi olaraq nəzərə almayan gürcü hakimiyyəti siyasi proseslərin necə davam edəcəyinə etinasız yanaşır. Lakin siyasət, necə deyərlər, etinasızlığı sevmir. Hətta Mixail Saakaşvili anidən Bakını ziyarət edərsə, son siyasi gücünü Bakıda toplayarsa, bu gücünü "Gürcü arzusu" koalisiyasına qarşı istifadə edərsə, yəqin ki, həmin koalisiyanın təmsilçiləri bundan narahat ola bilərlər...

## Dağıdıcı müxalifət təmsilçilərini Adenauer Fondunun tədbirinə dəvət edərkən, "Gürcü arzusu" bu barədə də az-çox düşünməliydi...

Biz son vaxtlar nələrin şahidləri oluruq? Gürcüstanın otel və konfrans zalları Azərbaycan hakimiyyətinə qarşı mübarizənin mərkəzinə çevrilib. Azərbaycanın dağıdıcı müxalifət təmsilçiləri Gürcüstan ərazisi vasitəsi ilə qrant əldə etmək üçün imkanlar əldə ediblər. Hətta bu kimi haqlı iradlara rəğmən, Gürcüstan "Avropanın liberal dəyərləri" barədə uzun-uzadı mülahizələr də söyləyə bilər. Fəqət, həmin dəyərləri nəzərə alaraq, Gürcüstan seçiciləri qarşısında nüfuzu artan M.Saakaşvilinin də tərəfdarları Bakıda ola bilərlər. Hər halda, dağıdıcı müxalifət təmsilçilərini Adenauer Fondunun tədbirinə dəvət edərkən, "Gürcü arzusu" bu barədə də az-çox düşünməliydi...

**Rövşən RƏSULOV**

# Təhqir və əxlaqsızlıq dağıdıcı müxalifətin fəaliyyət prinsipinə çevrilib

***Son günlər dağıdıcı müxalif düşərgədə baş verənlər göstərir ki, söyüş, təhqir və əxlaqsızlıqlarla dolu dırnaqarası siyasi mübarizə metodları radikal müxalifətin əsas fəaliyyət prinsipinə çevrilib. Xüsusilə, sivil mübarizə bacarıqsızlığı, siyasi naqislik və zəiflik bu düşərgə mənsublarının əsl mahiyyətini açıb ortaya qoyur. Hakimiyyətə, ictimaiyyət nümayəndələrinə, ziyalılara qarşı qeyri-əxlaqi davranışlar və təhqirlər dağıdıcı müxalifətin əxlaq probleminin oldugunu tam sübuta yetirir.***

Şər-böhtan və qarayaxma üslubu ilə seçilən radikal düşərgə indi də öz leksikonunu küçə söyüşləri ilə zənginləşdirib. Adları indiyə qədər cəmiyyətə məlum olmayan şəxslərin simasında müxalifət özünə yeni silahdaşlar tapıb. Əslində, bu əxlaqsız mübarizə metodunun müxalif düşərgə üçün heç də yad olmadığını göstərən yaxın keçmişdə kifayət qədər sübutlar var. Bunun üçün cəmiyyətə özünü "ana" müxalifət kimi sırımaga çalışan AXCP sədri Əli Kərimli və onunla eyni maraqlar bölüşən Qənimət Zahid, Azər Əhmədov, Natiq Ədilov, Xədicə İsmayıl və Türkel Kərimlinin vaxtilə yayılmış videoları hələ də unudulmayıb. Bu şəxslərin təmsil olunduğu düşərgənin öz əxlaqsızlıqlarını siyasi mübarizə səhnəsinə daşıması, ola bilsin ki, onlar üçün normal haldır.



Araşdırmalar göstərir ki, dağıdıcı olmaq, müxalifətə müxalifət ola biləcəyi formada olduğunu gözə soxmaqdır. Bir sözlə, hərə öz hayında, praqmatik maraqların peşindədir".

## "Azərbaycan iqtidarı ölkənin real güc qütbüdür"

"VİP" sədri etiraf edir ki, bugünkü hakimiyyət ölkənin real gücüdür və bunu nəzərə almaq mütləqdir. O, bununla bağlı dialoq mühitinin də önəmini qeyd edərək, məhz kompromislər yolu ilə ölkənin siyasi ab-havasına yeniliyin mümkünlüyü barədə fikir bildirib. Ona görə də, radikal müxalifət hər zaman məhvə məhkumdur: "Bu düşərgədə də, real vəziyyət cəmiyyətə təqdim edildiyi kimi deyil. Həm beynəlxalq, həm də ölkədaxili şərtlərin nədən ibarət olduğunu hamı gözəl anlayır. Azərbaycan iqtidarı ölkənin real güc qütbüdür. Bu qütbü nəzərə almamaq mümkün deyil. Bu gücü nəzərə almamaq, ona qarşı tərs mövqe nümayiş etdirmək öncədən uğursuzluğu bəlli olan siyasi xəttin aparıcısı olmaq deməkdir. Müxalifət tərəfindən yürüdülən radikal siyasi xətt öncədən məğlubiyyətə məhkumdur. Bunu indidən demək olar. Təəssüflər olsun ki, bu cür xətt sıravi müxalifləri həvəsləndirmir, əksinə, ruhdan salır, inamsız edir".

müxalif təmsilçiləri öz güclərini Avropadakı məlum antiazərbaycançı şəbəkədən alırlar və fəaliyyətlərini də buna uyğun qururlar. Əxlaqı korlanmış "sosial media qəhrəmanları" Avropada oturub, Azərbaycan əleyhinə təbliğat aparırlar və radikal düşərgə təmsilçilərinə konkret istiqamət verirlər. Amma maraqlısı odur ki, xaricdəki siyasi buqələmunlar etiraz formalarını açıq və sivil formada göstərmək üçün, məkan olaraq, izdihamlı yerləri yox, ayaqyollarını seçirlər. Bununla da, mahiyyət etibarilə "ayaqyolu müxalifəti" funksiyasını daşıdıqlarını göstərirlər.

Düşüncəsi və təfəkkürü sıfır səviyyəsində olan Ə.Kərimli və onun birbaşa nəzarətində olan cəbhə trolları da ən təhqiramiz ifadələrlə insanların heysiyyatına toxunurlar. Onlar üçün müqəddəs dəyərlər artıq yoxdur. Əxlaq problemləri mövcud olan bu şəbəkənin konkret missiyası var: bizi dəstəkləməyənlər düşmənlərimizdir. Ancaq bir əxlaqsızlıq, mənəviyyatsızlıq baş verdikdə isə, bunu sosial şəbəkə vasitəsilə tirajlayırlar.

## Əli Orucov dağıdıcıları ittiham etdi

AMİP katibi Əli Orucov sözügedən məsələyə aydınlıq gətirərək, bildirib ki, demokratik institutların vacib elementlərindən biri də siyasi partiyalaşma və çoxpartiyalılıqdır: "Təəssüflər ki, indi siyasi partiyaların, xüsusən də, müxalifətin durumu fərqlidir. Bu cür mühitdə radikalizm, fanatizm və nifrət özünə meydan qazanır, demokratik mübarizə ilə öz istək və arzularını həyata keçirə, haqq və hüquqlarını qoruya bilməyəcəyini görən müxalifət partiya təmsilçiləri siyasi fəaliyyətdən və siyasi proseslərdən çəkilir və alternativ variantlar axtarırlar".

Ə.Orucov müxalifət düşərgəsində baş verənlərin təsadüf olmadığını düşünür: "Qarşıdurmanın vüsət alması siyasətin pərdəarxasıdır. Məram isə məğlubiyyətlə barışmış bir sıra təşkilatların yeni müxalifət müxalifətçilik etmək arzusudur. Ona görə də, hakimiyyətə gəlmək deyil, müxalifətin lideri

## Tural Abbaslı: "Hanı müxalifətin cəmiyyətdəki proseslərdəki rolu və təsiri?"

"Ağ" partiyanın sədri Tural Abbaslı özünün sayca səkkizinci qurultayını keçirəndən sonra ciddi problemlərlə üzləşən Müsavatda yaranmış böhranı aradan qaldırmağın, hələlik, mümkün olmadığını söyləyib: "Yeni başqanın diktator tipli idarəçiliyinə etiraz edənlərin Müsavatdan uzaqlaşdırılması, vəziyyəti bir qədər də gərginləşdirib. Belə ki, bir qrup müsavatçı Ədliyyə Nazirliyinə müraciət edərək, partiyanın dövlət qeydiyyatının ləğv edilməsini istəyib. Bəs, görəsən, bütün bunlar Müsavat hara aparır və partiyanın dövlət qeydiyyatının ləğvi mümkündürmü? Yaxud sabiq başqan İsa Qəmbər Müsavatda yaranmış problemin aradan qaldırılması üçün nədən cəhd göstərmir?"

Bir qrup müsavatçının partiyanın dövlət qeydiyyatının ləğvi ilə bağlı Ədliyyə Nazirliyinə müraciətinə də toxunan T.Abbaslı deyib ki, əslində, faktın özü xeyli ağrıdıcıdır: "Görün partiya daxilində demokratik münasibətlər nə dərəcədə aradan qaldırılıb ki, bir müsavatçı digər müsavatçını məhkəmə ilə cəzalandırmaq məcburiyyətində qalıb. Əslində, partiyadaxili demokratik idarəetmə qaydasında olsaydı və partiyanın orqanları bir qrupun siyasi maraqları uğrunda deyil, Nizamnaməyə uyğun fəaliyyət göstərsəydi, bütün bunlara ehtiyac qalmazdı. Ancaq təəssüf ki, məsələlər bu həddə qədər gəlib çıxdı".

**Rəfiqə HÜSEYNOVA**

# Ailə hüquqları, milli və ümumbəşəri dəyərlər

***Mənəvi dəyərlər, ilk öncə, insanların həyatı boyu riayət etməyə adət etdiyi müxtəlif dəyərlər sisteminə münasibətlə bağlı olub, düzgün və yanlış davranış prinsiplərinin cəmini ehtiva edir. İnsan həyatında baş verən istənilən hadisə bizə mənəvi dərs verir.***

Mənəvi dəyərlər cəmiyyətimizin əsasını əks etdirir. İnsan mənəviyyatı itdikdə, cəmiyyət dağılmaq təhlükəsi ilə üzləşir. Bitki torpaqsız, günəş işığı olmadan, susuz yaşaya bilmədiyi kimi, insanın da cəmiyyətdə duruş gətirməsindən ötrü mənəvi dəyərlərə ehtiyacı vardır. Mənəvi dəyərlər möhkəm tarixi köklərə, güclü mənəvi bazaya əsaslandıqda, cəmiyyət daha güclü olur. Maddi olan heç nə mənəvi olanı əvəz edə bilməz. Ədalət, mərhəmət, məhəbbət, həqiqət və s. daimi ümumbəşəri dəyərlər olub, fərdi və sosial inkişafın əsas amilləridir.

Fəlsəfə üzrə elmlər doktoru Ziba Ağayeva yazır: "Cəmiyyətdə ictimai dəyərlər, milli dəyərlər və intellektual dəyərlər bir-birindən fərqləndirilir. Əxlaqi dəyərlərlə mənəvi dəyərlərin fərqli və oxşar cəhətləri mövcuddur. Fərd başqa insanlarla əlaqəyə, ünsiyyətə girdikdə, mənəvi dəyərlər əxlaqi dəyərlərə çevrilir. Bütün dəyərlər istənilən halda mənəvidir. Harada insanı münasibətlər varsa, orada mənəvi məsələ ön plana keçir. Məhz insan başqa insanla münasibətdə özündə gizlənmiş xeyri şərdən fərqləndirmək imkanı əldə edir.

Müasir cəmiyyətdə mənəvi dəyərlər, həqiqətən, dəyişmişdir. Buna misal olaraq, gənc nəsildə böyüklərə, ağsaqqallara, nüfuzlu insanlara hörmətin azalması və bunun məntiqi nəticəsi olaraq uşaqlar və gənclər arasında cinayətkarlığın yüksəlməsi hallarını və s. göstəmək olar. Məhz bu səbəb üzündən, bəzi insanlar özgəyə məxsus olana hörmət etməyi yadırğamış, xahiş etmək əvəzinə, istədiklərini götürməyə adət etmişlər. Müasir dövrdə insanların başqa insanlarla münasibətinin ətrafdakılara necə təsir göstərməsi onları narahat etmir. Bu gün ani zövq, ləzzət, məmnunluq və özündənrazılıq geniş yayılmışdır. Mən istədiyimi edə bilərəm, istədiyim kimi yaşaya bilərəm və buna qarışmağa heç kimin həddi yoxdur. Mən qapımı, kim olursa-olsun, üzünə bağlaya bilərəm, kinayə ilə itəliyə bilərəm, alçalda bilərəm, lakin onların bunu mənə qarşı etmələrinə cürətləri çatmaz. Çünki heç kəs mənimlə ayaq uzatmasın, məndən yoxdur, mən istisnayam. Belə mentalitet cəmiyyətdə baş verən sosial ədalətsizliklərdən, özündən razılıq, biganəlik, etinasızlıqdan qidalanır desək, yanılmarıq.

Müasir cəmiyyətdə mənəvi dəyərlərin aşağı düşməsinin səbəbi hardasa valideynlərin üzərinə düşür. Valideynlərin öz övladlarına həyatda milli adət-ənənənin, ailə dəyərlərinin, böyüklərə hörmət hissinin nə qədər böyük önəm daşıdığını öyrətməmələri, uşaqların mənəvi aşınmasına və maddi cəhətdən ərköyünləşməsinə, nəticədə, onlarda mənəviyyatsızlığın və xəsisliyin yaranmasına səbəb olur. Hazırda yeniyetmələr arasında hamiləlik hallarının çoxalması, eyni zamanda, rəsmi nikahda olmayan qadınlar arasında hamiləlik hallarının çoxalması dövrün problemlərindən birinə çevrilmişdir. Mənəvi dəyərlərin aşağı düşməsi cəmiyyətdə zorakılığın və narkotikdən istifadənin artmasına səbəb olmuşdur. Bütün bunlar müasir dövrün mənəviyyat və dəyərlər dövrü olduğuna şübhə doğurur. Gənclər düzü-əyridən, xeyrişərdən, pisi-yaxşıdan seçməkdə çətinlik çəkir. Ən maraqlısı budur ki, bu tendensiya, məhz daha çox zamanın yeni tələblərinə, yeni çağırışlarına cavab verməkdə çətinlik çəkən gənclər arasında daha çox yayılmışdır.

Fikrimizcə, bunun səbəblərindən biri KİV-lərdə və internetdə, xüsusilə, gənclərin zövqünü oxşayan sənət adamlarının (musiqiçilər, aktyorlar və s.) təmtəraqlı həyat tərzinin, reallıqla əlaqəsi olmayan ideyaların təbliği hallarıdır. Bu gün daima və sürətlə dəyişən dünyada insanların yaxşını-pisdən seçməkdə çətinlik çəkmələri bir faktdır".

Müəllifin fikrincə, son illərdə "humanist simalı qloballaşma" şuarları tez-tez eşidilir, bu aspektdə çoxsaylı konfranslar və görüşlər keçirilir. Ölkələr, mədəniyyətlər və dinlərarası dialoq çağırışları səslənir. Bu müsbət hadisə fonunda da konkret insanın və insanlararası ünsiyyətin problemləri kölgədə qalır. Sivilizasiyalararası böhranın mövcudluğu vurğulanır. Lakin bu böhranın, hər şeydən əvvəl, dəyərlər böhranı olduğu qabardılmır. Əslində, mövcud böhran həm də liberal və ənənəvi dəyərlər, individualizm və kapitalizm, liberal və konservativ dəyərlər arasında olan böhrandır. Bu o deməkdir ki, bəşəriyyət bu dəyərlərlə liberal bazar iqtisadiyyatını, utilitarizmi və praqmatizmi mütləqləşdirən insan şüuru ilə tərəqqi edə bilməz. Ənənəvi dəyərlərin rədd edilməsi qlobal dəyər nihilizmini şərtləndirmişdir. Buna görə də, dəyər oriyentasiyaları kökündən dəyişməli, yeni dəyərlər sisteminin formalaşması taleyüklü məsələyə çevrilməlidir. Burada alternativ çıxış yolu qeyri-mümkündür. Çünki sivilizasiyanın inkişaf tarixi, məhv olan mədəniyyətlərin və süquta uğrayan dövlətlərin aqibəti bunu sübut edir.

Tədqiqatçı Əbülfəz Süleymanov yazır: "Evdə münaqişəyə səbəb olan bir başqa məsələ də ailədaxili rol bölgüsü ilə əlaqədardır. Belə ki, əvvəlki illərdə ev işləri və uşağa qulluq məsələləri, hətta bir işdə çalışsa belə, qadının öhdəsində idi. Amma müasir qadın bu vəziyyətə etiraz edir və həyat yoldaşının da onunla birgə bu məsuliyyəti bölüşməsini tələb edir. Ailə başçısı olan gənc isə, bu cür davranış modelinə hazır deyil. Çünkü yenə də onun böyüyüb-başa çatdığı ailədə bütün ev işlərini evin xanımı olan anası yerinə yetirmişdir və həmin gənc öz həyat yoldaşından da eyni davranışı gözləyir. Eynilə evin gəlini olan gənc xanım da böyüyüb-başa çatdığı ailədə evin bütün maddi təminatını atasının çiynində olduğunu görərək böyümüşdür. Bəzi "müasir" gənc ailə başçılarının çalışmaq istəməmələri, hər şey valideyinlərindən gözləmələri isə, bu dəfə də, evin xanımının bu vəziyyətə etiraz etməsinə səbəb olur. Burda da yenə ənənəvi davranış modeli ilə müasirlik arasında münaqişə faktı özünü büruzə verir. Başqa bir ifadəylə müasir və ənənəvi düşüncə tərzinin toqquşması baş verir. Hətta düşüncə tərzində meydana gələn bu fərqliliklərə görə, bəzi gənc xanımların son zamanlar əcnəbi kişilərlə ailə qurmalarına üstünlük verdikləri aparılan tədqiqatlarla aşkarlanır".

Ə.Süleymanov qeyd edir ki, bütün bu qeyd olunan məsələlərdən sonra, istər-istəməz, belə bir sual ortaya çıxır: necə olur axı, müasir gənclərin bir hissəsi ailə daxilində ənənəvi davranış modelinə üstünlük verdikləri halda, digər bir hissəsi isə öz qurduqları ailədə böyüdükləri ailədən fərqli davranış modelləri nümayiş etdirirlər? Məsələ burasındadır ki, əgər əvvəlki illərdə gənci ailə həyatına hazırlayan yalnız öz ailəsi idisə, müasir dövrdə başqa qeyri-formal institutların da gənclərin ailə həyatı haqqında fikirlərinin formalaşmasına təsirli olduğu nəzərdən qaçmır. Burda televiziyanın rolunu xüsusi qeyd etmək lazımdır. Belə ki, gənc qızın tamaşa etdiyi serialın qəhrəmanı və ya kumiri olan müğənni bütün gününü gözəllik salonunda, əyləncə mərkəzində, rəfiqələri ilə birlikdə özünə vaxt ayırmaqla keçirir. Ev işlərini ya evin qulluqçusu görür, ya da, ən yaxşı halda, həyat yoldaşı ilə birgə həyata keçirirlər. Həmin serial qəhrəmanı öz karyerasını da, yeri gələndə, ailə maraqlarından üstün tutur. Bunun təsiri altına düşən gənc xanım eyni həyat tərzini öz ailəsində də tətbiq etmək istəyir və nəticədə, insident qaçılmaz olur. Burada bir məqamı da qeyd etmək lazımdır ki, qadınların müasir həyat tərzini mənimsəmələri və onlara uyğun davranış modelləri nümayiş etdirmələri kişilərdən daha sürətlidir.

Ə.Süleymanova göstərir ki, bu məsələdə valideyinlərin də münasibətlərində əvvəlki illərdən fərqlənən bir çox cəhətlər özünü büruzə verir. Belə ki, əgər əvvəlki illərdə bu cür hallarda valideyinlər daha çox barışdırıcı mövqedə çıxış edirdilərsə, müasir dövrdə onların da öz övladlarını haqlı çıxaran və tərəfini saxlayan bir mövqe nümayiş etdirdikləri müşahidə olunur. Əvvəlki illərdə ata və ana öz qızına, evləndikdən sonra yalnız qonaq kimi ata ocağına gələ biləcəyini deyirdilərsə, indi isə xırda bir münaqişədə belə, onun arxasında olduğuna eyham vuraraq, öz övladlarına, əslində, çox mənfi nümunə olurlar.

İlk baxışdan, kiçik və əhəmiyyətsiz görünən bu məqamlar, bu gün Azərbaycan ailəsinin ciddi problemlərə səbəb olan amillər arasında yer alır. Lakin bu arzuolunmaz prosesin əvvəlcədən qarşısını almaq olar. Bunun üçün, ilk növbədə, valideyinlərin öhdəsinə böyük məsuliyyət düşür. Birinci növbədə, onlar öz övladlarını ailə həyatına hazırlamalı, ailənin bütün vəziyyətlərdə hərəkət sxemini onlara aşılamaları lazımdır.

Eyni zamanda, bu prosedə müasir üsullardan da istifadə etmək vacibdir. Bu baxımdan, evlənmə yaşında olan gənclər üçün xüsusi kursların təşkil olunması məqsədəuyğundur. Bu təcrübədən bir çox ölkədə istifadə olunur. Yuxarıda qeyd olunan və müasir həyat tərzindən irəli gələn problemlərin öhdəsindən gəlmənin yollarını ixtisaslı mütəxəssislər xüsusi məşğələlərlə gənclərə aşılamağa çalışırlar. Bu məşğələlərdə ailədə meydana gələn böhran, ən xırda təfərrüatına qədər təhlil olunur, böhranın idarə olunması və ondan çıxış yolları öyrədilir. Bu sahədə qardaş Türkiyənin təcrübəsindən istifadə etmək olar. Orda bu cür kurslar, mütəmadi olaraq, təşkil olunur və gənclər çox həvəslə bu cür kurslarda iştirak edirlər.

Ailə münasibətlərinə təsir edən digər bir məsələ son dövrlər müxtəlif ideoloji cərəyanlar adı altında, faktiki olaraq, ənənəvi ailə strukturunu hədəfə alaraq, kişi-qadın münasibətlərində minilliklərin süzgəcindən keçə-keçə gəlmiş adət-ənənələri, görməzə-bilməzə, birdən-birə dəyişməyə çağıran təbliğatlarla qarşılaşırıq. Bu təbliğatların bir qismi də Qərb dəyərlərinə söykənir. Lakin unutmaq olmaz ki, bizim ailə quruluşumuz Qərbdəkindən xeyli fərqlidir. Azərbaycan ailəsi milli-dini dəyərlər ilə yoğrulmuş, buna görə də, Qərb ailə və cəmiyyət quruluşundan çox cəhətdən fərqlənir. Ən azı bir faktoru nəzərə almaq lazımdır ki, Qərbdə cəmiyyət həyatı fərd, Şərqdə və o cümlədən, Azərbaycanda isə ailə əsasına söykənir. Eyni zamanda, yuxarıda qeyd olunduğu kimi, bu cür təbliğatların bir qismi Qərb ailə institutunda çox ciddi problemlərə gətirib çıxardı. Bu baxımdan, qərbli bir tədqiqatçının məsələylə bağlı araşdırması çox əhəmiyyətlidir. Kaliforniyalı psixiatr Judith Wallerstein, valideynləri boşanmış 131 uşaq üzərində 15 il apardığı tədqiqat nəticəsində, boşanmalarında əsas səbəbinin "ailələrdə bərabərlik" uğrunda mübarizə olduğunu nəticəsinə gəlmişdir. Tədqiqatçı bununla bağlı bu fikirləri söyləyir: "Boşanma və qadının kişi ilə bərabər hüquqa malik olma arzusunu əldə etməsi ilə problemlərin həll olunacağı düşünülürdü. Bugünkü vəziyyət bunun nə qədər səhv yanaşma olduğunu ortaya qoydu. Qərbdə bu gün nikahların yarısından çoxu dağılır. 30-40 il əvvəl belə deyildi. Bəs bu keçimsizliyin səbəbi nədir?" Wallerstein bunu belə izah edir: "O zamanlar ailədə rollar kəskin xətlərlə ayrılmış və bu, hamı tərəfindən qəbul olunmuşdu. Kişi çörəyi qazanıb gətirən, qadın onu bişirəndi. Halbuki bu gün belə deyil. Bu gün rollar qarışıb. Səhnədəki rolların qarışması oyunun intizamının və bunun da nəticəsində, oyunun tamamının pozulmasına gətirib çıxarıb".

Wallerstein bu gün Qərb ailə həyatındakı böhranın əsas səbəbinin səhnədəki iki əsas oyunçu arasındakı çəkişmədən, rol münaqişəsindən irəli gəldiyini deyərək, sözlərini belə davam etdirir: "Rol dəyişikliyini istəyən qadın olduğuna görə, bu məsələdə ən çox qadının qalib çıxması gözlənildiyi halda, tam tərsinə oldu. Ailənin dolanışığı məsuliyətini bölüşəcək birini tapdıqları üçün kişilər, bu rol dəyişikliyindən daha qazanclı çıxdılar. Yəni bu, o deməkdir ki, qadınlar zərərdədirlər. Ən böyük zərər görən isə, ailə istiliyindən və tərbiyəsindən uzaq qalaraq, psixologiyası pozulan uşaqlardır. Üzərində boşanma hadisəsinin təsiri qalmayan, asan uyğunlaşan, normal bir yetkinlik yaşına çatan bir tək uşaq görmədik".

Azərbaycanda, xüsusilə, son illər boşanan cütlər arasında çalışan qadınların sayının çox olması bu problemin Azərbaycan üçün də aktual olduğunu göstərir. Bu hal, xüsusilə, çalışan qadınların ailəyə daha çox vaxt ayıra bilmələri üçün bəzi qanunvericilk aktlarının hazırlanıb tətbiq olunmasını zəruri edir.

Eyni zamanda, xüsusilə, gənc ailələr arasında boşanma hallarının artmasına səbəb olan maddi problemlərin həlli üçün mənzil-kommual şəraitinin yaxşılaşdırlıması və ailələrin sosial müdafiəsi və tələbatlarının ödənilməsi istiqamətində tədbirlər planının hazırlanıb həyata keçirilməsi vacibdir.

Fəlsəfə üzrə elmlər doktoru Sakit Hüseynov bu qənaətə gəlir: "Müşahidələr göstərir ki, möhkəm təmələ əsaslanan ailələrin qurulması üçün aşağıdakı məsələlərin həyata keçirilməsi məqsədə müvafiqdir:

1. Tarixən türk xalqlarında mövcud olmuş klassik ailə modelinin öyrənilməsi.

2. Son illərdə müxtəlif sosial-iqtisadi və mənəvi-psixoloji səbəblər üzündən artmaqda olan erkən nikahların qarşısını almaq üçün müəyyən tədbirlərin görülməsi.

3. Ailə Məcəlləsində nikaha girmə yaşının artırılması ilə bağlı dəyişikliklərin həll edilməsi.

4. Gənclər arasında vətəndaş nikahının getdikcə çoxalmasının qarşısını almaq üçün təbliğat və təşviqat işinin gücləndirilməsi.

5. Ailənin qurulması və onun idarə olunmasında milli-mənəvi dəyərlərə, adət-ənənələrə və böyüklərin xeyirduasına üstünlük verilməsi".

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 26 oktyabr

## Baş ağrısı bulanıq görmə ilə nə dərəcədə əlaqəlidir?



Bulanıq görmə müxtəlif xəstəliklərin əlaməti ola bilər. Bunlara göz xəstəlikləri, beyin travmaları, beyin şişləri və s. aid edilə bilər. Bu sözləri AZƏRTAC-a müsahibəsində Caspian İnternational Hospitalın nevroloqu Lalə Həsənova bildirib.

Onun sözlərinə görə, bulanıq görmə və baş ağrısı şikayətləri bir-biri ilə sıx əlaqəlidir və görmənin pisləşməsi ciddi xəstəliyin erkən əlaməti ola bilər. Bu şikayətlər bir sıra xəstəliklərdə müşahidə olunur.

Həkim son günlərdə rast gəlinən bir sıra klinik halları nəzərə alaraq bu xəstəliklərdən biri olan Pseudotumor cerebri haqqında məlumat verib: "Pseudotumor cerebri hərfi tərcümədə "beynin yalançı şişi" deməkdir. Xəstəliyin bu cür adlandırılmasının səbəbi isə əlamətlərin özünü beyində şiş olmadığı halda varmış kimi göstərməsidir. Həm uşaqlarda, həm də böyüklərdə müşahidə olunmasına baxmayaraq, xəstəlik reproduktiv yaşda olan, xüsusilə artıq çəkidən əziyyət çəkən qadınlarda daha çox rast gəlinir. Problemin əsas şikayətləri müxtəlif dərəcədə (yüngül, orta və ya şiddətli) baş ağrıları, görmənin pisləşməsi, ürəkbulanma, qulaqlarda küy, başgicəllənmə və s. olur. Yaranma səbəbinə gəldikdə isə dəqiq məlum olmasa da, bu xəstəlik çox vaxt beyni normada əhatə edən mayenin miqdarının artması və nəticədə kəllədaxili təzyiqin yüksəlməsi nəticəsində yaranır. Kəllədaxili təzyiqin yüksəlməsi nəticəsində isə göz dibində durğunluq və görmə diskinin ödəmi (şişməsi ), görmənin pisləşməsi baş verir. Vaxtında müalicə olunmadıqda görmənin itməsi də ola bilər". Oftalmoloq xəstəliyin müalicəsinin ətraflı müayinə edildikdən sonra dərman vasitələri və ya cərrahi yolla aparılacağına qərar verildiyini deyib: "Keyfiyyətli müalicə əldə etmək və ağırlaşmaların olmaması üçün vaxtında müayinə şərtdir".

## Diqqətli olun: Telefon kamerası ilə izlənirik!



Mobil telefonlar və internetin həyatımıza daxil olması ilə şəxsi həyatın gizliliyi anlayışı azalır. Telefonlar, kompüterlər, yeni nəsil televizorlar kamera və mikrofonları vasitəsilə evimizi anbaan izləyir. İnternetə bağlı olan bir cihazla həyatımızın izlənməsi artıq təkcə filmlərdə olmur, real həyatda da var. Dünyada bu işi hakerlər, şirkət və gizli təşkilatlar edir. Evinizdə internetə qoşulmuş cihazların sayının çox olması təkcə rahatlıq gətirmir. Bu sizi daha çox internetə bağlayır. Kompüter, telefon, planşet, yeni nəsil televizorlar kimi təhlükəsizlik kamerası və uşaq təqib monitoru gizli gözlər üçün mükəmməl vasitədir. Kimlərsə gündəlik həyatınızı ən təbii halı ilə izləyir. Biz hiss etmədən telefon kamerasının görmə bucağında görüntü və səsləri qeydə alır. İnstaqram profilinizi ziyarət edənlər barədə məlumat verən tətbiqlər telefonunuza kənardan sızaraq sizi izləyə bilir.

Ona görə də telefona məlumat yükləyərkən maksiumum diqqətli olmalısınız. Feysbukun yaradıcısı Mark Çukerberqin paylaşdığı şəkildə kompüterin kamerası və mikrofonun bağlandığı məlum olur. Bu üsul təsirli ola bilər. Kompüterinizin kamerasını və mikrofonunu bu üsulla bağlaya bilərsiniz. Kompüteriniz vasitəsilə daxil olduğunuz saytlara diqqət edin. (publika.az)

## Vergi orqanları Qaret Beylə sanksiya tətbiq edəcək




İspaniyanın vergi orqanları "Real" futbol klubunun uelsli yarımmüdafiəçisi Qaret Beylə 2013-cü ildəki gəlirini gizlətdiyi üçün sanksiya tətbiq edilə bilər. "El Mundo Deportivo" nəşri xəbər verir ki, vergi orqanları buna görə, futbolçudan 337 min avro tutmaq istəyir. Cari mövsümdə Beyl Madrid klubunun heyətində keçirdiyi 11 matçda 4 qol vurub. Xatırladaq ki, əvvəllər "Real"ın oyunçularından Marselo, Luka Madriç və Kriştianu Ronaldu da oxşar qalmaqalla üzləşiblər.

## Rəsul Çunayev dünya çempionatının yarımfinal mərhələsinə yüksəlib



Macarıstanın paytaxtı Budapeştdə keçirilən güləş üzrə dünya çempionatının altıncı günündə 4 çəkidə yunan-Roma güləşçiləri mübarizəyə qoşulublar. AZƏRTAC xəbər verir ki, dünya çempionu Rəsul Çunayev (72 kq) mübarizəyə 1/8 finaldan qoşulub və yapon rəqibi Tomohiro İnoeyə qalib gəlib. Dörddəbir finalda təmsilçimiz İran pəhləvanı Məhəmmədəli Gerayıdan üstün olub və yarımfinala yüksəlib. Avropa çempionu Eldəniz Əzizli (55 kq) ilk mərhələdə macar rəqibi Jozef Andrasini cəmi 1 dəqiqəyə məğlub edib. Növbəti mərhələdə onun rəqibi Çin təmsilçisi Liquo Çao olacaq. Çempionatda 63 kiloqram çəki dərəcəsində mübarizə aparan Taleh Məmmədov təsnifat mərhələsində çətinliklə də olsa, norveçli həmkarı Stiq-Andre Berqeni üstələyib. Daha sonra güləşçimiz Taleh 1/8 finalda erməni güləşçisi Slavik Qalstyandan güclü olub. Rafiq Hüseynov (82 kq) da yarışa 1/8 finaldan başlayıb və bolqarıstanlı Daniel Tihomirov Aleksandrov ilə gərgin keçən görüşdə əzmkar qələbəyə sevinib. Hesabda 0:3 geridə olsa da, yekun nəticə Hüseynovun xeyrinə olub.

## Fatih Terim: "Bir xal bizim üçün qazanc oldu"



"Bir xal bizim üçün qazanc oldu. İkinci hissədə uduza bilərdik. Muslera möhtəşəm oynadı. Ona təşəkkür etmək lazımdır. Ən böyük təşəkkürü isə məncə, Ozan aldı. Bu, 1 xal bizi yarışda saxladı. Ən azı ilk pillələri tutmaq şansımız nəzəri olaraq qalır". Bu sözləri "Qalatasaray"ın baş məşqçisi Fatih Terim Çempionlar Liqasının qrup mərhələsinin 3-cü turunda evdə "Şalke" ilə qolsuz bərabərə qaldıqları oyundan sonra keçirilən mətbuat konfransında deyib.

"Azarkeşlər arxamızda durdu. Biz də müqavimət göstərdik. Bu, bizim oyunumuz deyil. Hələ 15-ci dəqiqədə bir dəyişiklik etmək istədim. Səlcuqu oyuna daxil edə bilərdim, amma onun da bu vəziyyətdə 75 dəqiqə oynaması asan deyildi. 3 xal qazansaydıq, sıralama maraqlı olardı və bəzi üstnlüklərimiz ola bilərdi. Ancaq buna layiq deyildik. Qol buraxsaydıq, fərq də ola bilərdi. Yavaş-yavaş dəyişəcəyik, bu, bir anda olmur. Rəqibə pressinq etməklə "Qalatasaray" öz meydanında çox matç qazandı. Çox az zamana və dəyişikliyə ehtiyacımız var" - deyə o bildirib.

## Peres Lopeteqini "Viktoriya" ilə oyundan sonra istefaya göndərmək istəyib



"Real" futbol klubunun prezidenti Florentino Peres baş məşqçi Xulen Lopeteqini Çempionlar Liqasının qrup mərhələsinin üçüncü turu çərçivəsində "Viktoriya" ilə (2:1) oyundan sonra istefaya göndərmək istəsə də, sonradan fikrini dəyişib.

AZƏRTAC footballhd.ru saytına istinadən xəbər verir ki, komandanın "Viktoriya" ilə oyununa görə, məyus olan Peres qazanılmış qələbəyə baxmayaraq Lopeteqeni vəzifəsindən azad etməyə hazırlaşıb. Amma klubun idman direktoru Xose Anxel Sançes Peresi baş məşqçini İspaniya çempionatının 10-cu turunda "Barselona" ilə oyunadək saxlamağa razı sala bilib. İdman direktoru bu müddətdə ona əvəzləyici tapa biləcəklərini düşünür. Gələn mövsümdə isə "Real"ın baş məşqçisi Joze Mourinyu və ya Antonio Konte ola bilər.

## İrina Netreba: Qələbəmi anama həsr edirəm



İrina Netreba Macarıstanın paytaxtı Budapeştdə keçirilən dünya çempionatında medal qazanan ilk qadın güləşçimiz olub. AZƏRTAC xəbər verir ki, 65 kiloqram çəki dərəcəsində mübarizə aparan 27 yaşlı güləşçi bürünc medal əldə etdikdən sonra mundialdakı çıxışı haqqında bunları deyib: "Sözsüz, medal uğrunda görüş çətin keçdi. Amerikalı rəqibimi daha öncədən tanıyırdım. İlk dəfə dünya çempionatında medal qazandım. Bu "bürünc"ü Avropa çempionatında əldə etdiyim gümüş medaldan daha dəyərli sayıram. Məni sevindirən məqamlardan biri daha əvvəl uduzduğum çinli güləşçidən əvəz çıxmağım oldu. Şəxsi məşqçimə və yığmanın məşqçilərinə, bütün komandamıza təşəkkür edirəm. Qələbəmi anama həsr edirəm".

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500